DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (342) / YANVAR 2020-Cİ İL




Əvvəllər sovet dövründə əsas məqsəd diplom almaq idi. Evlənmək üçün, yəni, elçiliyə getmək üçün diplomu var, yoxsa yox?.. Diplom heç nədir, bilin. Əgər bilik olmasa, savad olmasa müasir dünyada bu, əhəmiyyətsiz bir şeydir. Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin.

**Prezident İlham Əliyev**

*Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdəki nitqindən*
*26 noyabr 2019-cu il*

## DÖVLƏT KOMİTƏSİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB



Səh. 3

## KÖNÜLLÜLÜK: TARİXÇƏSİ VƏ STRATEGİYASI



Səh. 5

## ƏHMƏD BƏY AĞAOĞLUNUN GÖZÜ İLƏ: DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ



Səh. 6

## "QURANI TƏHLİL ETMƏK, SUALLAR VERMƏK, YENİ MƏNALAR AXTARMAQ LAZIMDIR"



Səh. 8-9



# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Azərbaycanda əsrlər boyu müxtəlif xalqların və konfessiyaların nümayəndələri mehriban qonşuluq, dostluq və qarşılıqlı etimad şəraitində yaşamışlar. Cəmiyyətdə etnik-mədəni müxtəlifliyin, multikultural ənənələrin və dözümlülük mühitinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi dövlətimizin siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Sivilizasiyalararası və dinlərarası dialoqun möhkəmlənməsinə önəmli töhfələr verən mötəbər tədbirlərin, o cümlədən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, Dünya dini liderlərinin II Bakı Sammitinin ölkəmizdə keçirilməsi beynəlxalq miqyasda sülhün, əmin-amanlığın və harmoniyanın bərqərar olunması işində Azərbaycanın mühüm rol oynadığını göstərir.

Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan xristianlar ölkəmizdə gedən böyük quruculuq işlərində və milli-mənəvi həmrəyliyin daha da gücləndirilməsində vətəndaşlıq borcunu layiqincə yerinə yetirir, Azərbaycanın tərəqqisi naminə bacarıq və səylərini əsirgəmirlər.

Əziz həmvətənlər!

Mübarək Milad bayramı yeni həyatı, dirçəlişi, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

**Bayramınız mübarək olsun!**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 4 yanvar 2020-ci il.*

# “DÖVLƏT KOMİTƏSİ QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ İLƏ BİRGƏ BEYNƏLXALQ TƏDBİRLƏR KEÇİRƏCƏK”

“Bu il Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi seminarlar və treninqlər keçirməyi nəzərdə tutub. Eyni zamanda, Komitə qadınlarla iş üzrə tərtib etdiyi proqram əsasında da konfranslar keçirəcək”.

Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib.

Komitə sədri qeyd edib ki, proqrama əsasən bölgələrdə qadınlarla keçiriləcək görüşlərdə dövlət-din münasibətləri, müxtəlif təmayüllü dini icmalarla və İslam dini ilə bağlı ətraflı məlumatlar veriləcək. Bundan başqa, Komitə hər il olduğu kimi, bu il də gənclərlə bağlı tədbirlər keçirməyi planlaşdırır. Gənclər üçün seminarlar, yay-qış məktəbləri təşkil olunacaq. Tədbirlərdə gənclərə Azərbaycanın tolerantlıq dəyərlərindən və müxtəlif radikal dini təşkilatların yaratdığı təhlükələrdən bəhs olunacaq, gənclərin siyasi və dini sahədə maarifləndirilməsi işi aparılacaq.

Mübariz Qurbanlı əlavə edib ki, Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsi ilə birgə ölkə daxilində və xaricində beynəlxalq tədbirlər keçirəcək. Tədbirlərdə Azərbaycanın dövlət-din modelindən bəhs olunacaq. Eyni zamanda, istər yerli, istərsə də xarici ictimaiyyət Azərbaycan dövlətinin apardığı multikulturalizm siyasəti barədə məlumatlandırılacaq.

Komitə sədri qeyd edib ki, Azərbaycan dövlətinin hədəfi dinlər və konfessiyalar arasında münasibətləri daha da gücləndirmək, həmçinin xaricdəki ekstremist, radikal dini qrupların ölkəmizə girməsinin qarşısını almaqdır.

# DÖVLƏT KOMİTƏSİNİN RƏHBƏRLİYİ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq yanvarın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Abşeron və Xızı rayonlarından, Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Neftçala rayonundan, sədr müavini Səyavuş Heydərov Sumqayıt şəhərindən, sədr müavini Gündüz İsmayılov isə Siyəzən rayonundan olan vətəndaşları qəbul ediblər.

Qəbullarda, əsasən, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb.

Müraciətlər diqqətlə dinlənilib, bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin həlli üçün müvafiq tapşırıqlar verilib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ “GəncLİK” PROQRAMININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞÜB

Yanvarın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı “GəncLİK” (Gənc Liderlərin İnkişafı Konsepsiyası) proqramının iştirakçıları ilə görüşüb.

Proqram iştirakçılarını salamlayan Mübariz Qurbanlı Prezident İlham Əliyev tərəfindən aparılan gənclər siyasətinin önəminə toxunaraq, ölkəmizdə gənclərin təhsili, işlə təmin olunması, inkişafı, dünyaya inteqrasiya etməsi, eyni zamanda milli dəyərlərə malik olan vətəndaş kimi tərbiyə almaları istiqamətində mühüm işlər görüldüyünü bildirib.



Daha sonra DQİDK sədri Komitənin fəaliyyət istiqamətləri, Azərbaycanda mövcud olan dini durum, dinlərin mahiyyəti və prinsipləri haqqında ətraflı məlumat verib. Bildirib ki, dünyəvi dövlət olan Azərbaycanda dövlət-din münasibətləri qanunla tənzimlənir. Ölkəmizdə bütün etnik qrupların, dini konfessiya nümayəndələrinin öz dillərini, dinlərini, mədəniyyət və adət-ənənələrini qoruyub saxlamasına, inkişaf etdirməsinə hər cür şərait mövcuddur.

Eyni zamanda, iştirakçılara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə informasiya verən Mübariz Qurbanlı Azərbaycan həqiqətlərinin təbliğində gənclərin üzərinə böyük məsuliyyət, vəzifənin düşdüyünü vurğulayıb və hər bir gəncin beynəlxalq miqyasda, xüsusilə sosial şəbəkələrin imkanlarından istifadə etməklə bu prosesdə aktiv iştirakının vacibliyini diqqətə çatdırıb.

Gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayan DQİDK sədri sonda onları maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, Gənc Liderlərin İnkişafı Konsepsiyası proqramı Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə reallaşdırılır.

# DÖVLƏT KOMİTƏSİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB

Yanvarın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2019-cu ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. İclasda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, kollegiya üzvləri, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

İclası giriş sözü ilə açan Komitə sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan 2019-cu ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə edib. Prezident İlham Əliyevin 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədəki çıxışında qeyd etdiyi kimi, ötən il Azərbaycan üçün uğurlu il olub, ölkəmiz il ərzində müxtəlif istiqamətlərdə önəmli yeniliklərə imza atıb.

Çıxışında Dünya Dini Liderlərinin II Bakı Sammitini dini sahə ilə bağlı 2019-cu ilin ən mühüm hadisələrindən biri kimi qiymətləndirən Mübariz Qurbanlı Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində keçirilən 70-dən çox dövlətin nümayəndələrinin qatıldığı tədbirin Azərbaycan üçün birgəyaşayışın və multikultural modelin parlaq nümayişi üçün növbəti imkan olduğunu bildirib.

Ötən il ərzində Dövlət Komitəsinin həyata keçirdiyi maarifləndirmə tədbirləri, dini radikalizmə, xurafata qarşı mübarizə sahəsində görülən işlər, qarşıya qoyulmuş hədəflərə çatmaq üçün müəyyən olunan istiqamətlər barədə də danışan DQİDK sədri ölkədə dini durumla bağlı sabitliyi təmin etmək, qoruyub-saxlamaq, həmçinin tolerant mühitin daha da sağlamlaşdırılması, mənfi təzahürlərin aradan qaldırılması üçün bir sıra əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. Prezident İlham Əliyevin Fərman və Sərəncamı ilə yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun ölkəmizin dini mühitinin sağlamlaşdırılması, dini sahə ilə bağlı bəzi boşluqların aradan qaldırılması istiqamətində, eləcə də xalqımızın mənəvi dəyərlərinin qorunması və təbliği sahəsində mühüm rola malik olduqlarını qeyd edib.

Dövlət və dini qurumlar arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan Komitə sədri cari dövrdə ölkə ərazisində maarifləndirmə işinin geniş miqyasda aparıldığını bildirib. 45 mindən artıq insanın iştirak etdiyi 500-ə yaxın tədbirin təşkilində Dövlət Komitəsinin mərkəzi və yerli icra hakimiyyəti orqanları və Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdırıb. DQİDK-nın qadınlarla iş sahəsində də öz fəaliyyətini gücləndirdiyini bildirən M.Qurbanlı 2019-cu ildə ölkənin bir sıra bölgələrində qadınlarla müxtəlif səpkidə görüşlər keçirildiyini, maarifləndirici söhbətlər aparıldığını əlavə edib.

Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev çıxışında bildirib ki, hesabat dövrü ərzində Muxtar Respublikanın şəhər və rayonlarında dini ayinlərin icraçıları və yerli dindarlarla görüşlər təşkil edilib, İslam dininin düzgün formada təbliği haqda müvafiq tapşırıqlar verilib, yanvar və fevral aylarında din xadimlərinin attestasiyası keçirilib. Dini təyinatlı ədəbiyyatların, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının Muxtar Respublika ərazisində yayılmasına ciddi şəkildə nəzarət edilib, dövlətçiliyimizə zidd, məzhəb ayrı-seçkiliyi salan və ifrat məzhəbçilik prinsiplərini təbliğ edən 78 adda 780 ədəd dini təyinatlı ədəbiyyatın yayılmasının qarşısı alınıb. İl ərzində maarifləndirmə işinin təşkili məqsədilə 26 dini veriliş hazırlanıb.

Daha sonra Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadənin 2019-cu ildə görülmüş işlər və ölkədəki mövcud dini durum barədə məlumatları əks etdirən çıxışı dinlənilib.



Bildirilib ki, Dövlət Komitəsi tərəfindən respublikada dini durumu hərtərəfli öyrənmək, radikal dini cərəyanların fəaliyyətinin qarşısını almaq, ölkədəki dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək istiqamətində müvafiq tədbirlər həyata keçirilib.

Hesabat dövründə Ramazan ayı, Qurban bayramı və Məhərrəmlik mərasimləri zamanı vətəndaşların dini etiqad azadlığının tam təmin olunması, bayram və mərasimlərin milli adət-ənənələrə uyğun təşkil edilməsi və neqativ halların, xurafat və mövhumat elementlərinin qarşısının alınması istiqamətində profilaktik tədbirlər, xüsusilə də maarifləndirmə işi həyata keçirilib. Dövlət Komitəsi hər il olduğu kimi QMİ tərəfindən keçirilən qanvermə aksiyasına xüsusi dəstək verərək dini icmalarda bununla bağlı təşviqat və təbliğat işlərini ötən il də davam etdirib.



Şöbə müdiri qeyd edib ki, hesabat dövründə dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, onların ümumi sayı 941-ə çatıb. Onlardan 906-sı İslam, 35-i qeyri-islam təmayüllüdür. Sonunculardan 24-ü xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır.

Dinşünaslıq ekspertizası üzrə məlumatlara diqqət çəkən C.Əlifzadə bildirib ki, idxalla bağlı 2019-cu ildə Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında 3888 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 216 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Ölkədə nəşr olunmaq məqsədilə təqdim edilən 239 adda dini ədəbiyyata baxılaraq, onlardan 14-nün çapı məqsədəuyğun sayılmayıb, 799 adda (648247 ədəd) dini təyinatlı ədəbiyyata yapışdırılması üçün nəzarət markaları verilib. Hüquq-mühafizə orqanları tərəfindən müsadirə olunaraq Dövlət Komitəsinə göndərilmiş 721 adda dini təyinatlı ədəbiyyata və məmulat materiallarına baxılaraq, onlardan 95-nin zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal edildiyi müəyyən edilib.

Şöbə müdiri dini maarifləndirmə istiqamətində aparılan tədbirlərə də diqqət çəkərək bildirib ki, 2019-cu ildə Dövlət Komitəsi tərəfindən ölkədəki dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, eyni zamanda, Azərbaycan vətəndaşlarının, xüsusilə gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə ayrıca və digər qurumlarla birgə tədbirlər həyata keçirilib. Qurumlarla əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti ilə 12, Müdafiə Nazirliyi ilə 18, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə 7, Dövlət Sərhəd Xidməti ilə 6, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə 25, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ilə 68, həmçinin orta və ali təhsil müəssisələrində 200-ə yaxın tədbir təşkil olunub.

Sonra çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fondun 2019-cu il üzrə fəaliyyəti barədə məruzə ilə çıxış edib. Bildirib ki, ötən il Fond tərəfindən 1021 nəfər rəsmi təyinatı olan din xadiminə maddi yardım göstərilib. O vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 18 iyun tarixli, 1265 nömrəli Sərəncamına əsasən, dövlət tərəfindən din xadimləri üçün verilən maddi yardımın məbləği 40 faiz artırılıb.

İcraçı direktor qeyd edib ki, Fond tərəfindən mənəvi dəyərlərin qorunması, inkişafı və təbliğini həyata keçirilməsi məqsədilə respublikamızın müxtəlif bölgələrində 2 layihə, 23 konfrans, 35 seminar və 8 "dəyirmi masa" təşkil edilib. 2019-cu ildə dini icmalar tərəfindən təqdim olunan 71 maarifləndirici layihə maliyyələşdirilib.

Ramazan ayında Fond tərəfindən şəhid ailələri və müharibə veteranları üçün 12 iftar süfrəsi təşkil edilib, Ramazan və Qurban bayramlarında isə 260 şəhid ailəsinin üzvlərinə və aztəminatlı ailələrə, eləcə də 50 nəfər Böyük Vətən və Qarabağ müharibəsi əlillərinə bayram sovqatı verilib. "Bir uşaq bir ümid" layihəsi çərçivəsində isə 6 uşaq evi ziyarət edilib və məktəbli ləvazimatı, eləcə də müxtəlif hədiyyələr uşaqlara paylanılıb.

Kütləvi informasiya vasitələrində mənəvi dəyərlərin təbliği işini həyata keçirmək məqsədilə isə ASAN Radio ilə birgə "Mənəvi dəyərlər" adlı radio veriliş hazırlanaraq təqdim edilir, o cümlədən hesabat dövründə 6 sənədli film və 6 sosial video-çarx hazırlanıb, Fondun maliyyə dəstəyi ilə 50-ə yaxın müxtəlif adda ədəbiyyat nəşr olunub. Fond tərəfindən dini etiqad sahəsində maarifləndirmə işinin gücləndirilməsi məqsədilə (012) 1845 nömrəli "Dini sorğu xidməti" yaradılıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru vəzifəsini müvəqqəti icra edən, prorektor Aqil Şirinov isə çıxışında vurğulayıb ki, hazırda İnstitutda 166 tələbə təhsil alır, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təhsil müəssisəsinə 2020/2021-ci il üzrə doktoranturaya qəbul başlayıb. "Unibook" təhsil informasiya idarəetmə sisteminin tətbiqi ilə bağlı müqavilə imzalanıb. Hesabat dövrü ərzində İnstitut müəllimlərinin 10 monoqrafiyası, 92 məqalə və tezisi, eləcə də İnstitutun təşkil etdiyi elmi konfrans materialları nəşr olunub. İnstitutda cəmiyyətin maarifləndirilməsi istiqamətində ictimaiyyət nümayəndələri, elm xadimləri və tədqiqatçıların iştirakı ilə 31 seminar və "dəyirmi masa", 28 tədbir, tələbələrin fərdi inkişafı, intellektual səviyyəsinin və mənəvi dünyasının zənginləşdirilməsi məqsədilə 6 təlim və 2 müsabiqə, tələbələrin və əməkdaşların iştirakı ilə 13 səfər təşkil olunub.

Sonda Dövlət Komitəsinin 2020-ci ilin birinci yarısı üçün fəaliyyət planı, gələcək hədəflər, problem və perspektivlər geniş müzakirə edilib, kollegiyanın gündəliyində olan məsələlər və İş Planı ilə bağlı qərarlar qəbul edilib.

# QMİ-DƏ 20 YANVAR ŞƏHİDLƏRİNİN XATİRƏSİNİ ANMA TƏDBİRİ KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) rəhbərliyi, Azərbaycandakı dini icmaların nümayəndələri yanvarın 16-da Şəhidlər xiyabanını ziyarət edib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Həmin gün Qafqaz Müsəlmanları İdarəsində 20 Yanvar şəhidlərinin xatirəsini anma tədbiri keçirilib.

Tədbirdə 20 Yanvar şəhidlərinin ailə üzvləri, QMİ-nin Qazılar Şurası və Elmi-Dini Şurasının üzvləri, Azərbaycanda yaşayan dini konfessiyaların rəhbərləri, tanınmış ictimaiyyət nümayəndələri, elm və din xadimləri iştirak ediblər.

Şəhidlərin ruhuna dualar oxunduqdan sonra QMİ-nin sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək 20 Yanvar faciəsinin tarixi və xalqımızın azadlıq mübarizəsi haqqında danışıb. A.Paşazadə bildirib ki, Azərbaycan xalqının tarixi yaddaşına dərin hüzn, eyni zamanda, milli qürur məqamı kimi həkk olunmuş 20 Yanvar faciəsi nə qədər zaman keçsə də əsla unudulmayacaq. Azərbaycan dövlətçiliyinin bərpası uğrunda qurban getmiş, Allah-Təalanın nəzərində ən yüksək məqamlardan sayılan şəhidlik zirvəsinə ucalmışlara ehtiramımız tükənməzdir.

Şeyxülislam vurğulayıb ki, 20 Yanvar günü bütün faciəsi ilə yanaşı, xalqımızın milli müstəqillik, Vətənimizin azadlığı uğrunda şəhidliyə hazırlıq ruhunun və yenilməz iradəsinin rəmzinə çevrildi. 20 Yanvar bizi müstəqilliyə, iqtisadi tərəqqiyə, milli və dini dəyərlərin bərpasına aparan yolun ilk mübarizəsi və ilk mənəvi qələbəsi oldu.

Şeyxülislam deyib ki, məhz Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra 20 Yanvar faciəsi əsl hüquqi-siyasi qiymətini aldı. 1994-cü il mart ayının 29-da Azərbaycan parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. O vurğulayıb ki, şəhidlərin ruhuna ən böyük töhfə Qarabağ zəfəri, Vətənimizin qüdrəti, xalqımızın xoşbəxtliyidir.

Diqqətə çatdırılıb ki, Qafqaz Müsəlmanları İdarəsi qanlı hadisələrin ilk günündən 20 Yanvar faciəsini dünya ictimaiyyətinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırılması, haqq işimizə dəstək qazanılması, törədilən cinayəti bəşəriyyətə qarşı yönəldilən amansız cəza tədbiri kimi qiymətləndirilməsi üçün var qüvvəsi ilə çalışdı.

Şəhid ailələrinin hər zaman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzində olduğunu vurğulayan A.Paşazadə deyib: "Biz inanırıq ki, Allahın köməyi və Prezident İlham Əliyevin rəhbərliyi ilə yaxın gələcəkdə millətimiz öz ülvi arzularına yetişəcək. Azərbaycanın hər yerində qələbə naminə bayram namazları qılınacaq".

Bütün Qafqazın şeyxi 20 Yanvar şəhidlərinin ailələrinə başsağlığı verərək onlara Allahdan rəhmət diləyib.




Sonra Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr İşein, Bakı Dağ yəhudiləri dini icmasının sədri Melih Yevdayev, Dini Qurumlarla İz üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və başqaları çıxış edərək 20 Yanvar faciəsindən və xalqımızın azadlıq mübarizəsindən danışıblar. Bildirilib ki, 20 Yanvar hadisələri Azərbaycan xalqının milli oyanışından, azadlıq və müstəqillik mücadiləsindən xəbər verən tarixi bir gerçəklik idi. Azərbaycana hərbi müdaxilə, ilk növbədə, milli azadlıq hərəkatını boğmağa, xalqımızı nəyin bahasına olursa-olsun əsarət altında saxlamağa yönəlmişdi.

Vurğulanıb ki, xalqımızın verdiyi qurbanlara, yaşadığı qanlı faciəyə baxmayaraq, 20 Yanvar təkcə faciə günü yox, eyni zamanda, tariximizin şərəfli səhifəsi olmaqla mübarizlik və qəhrəmanlıq nümunəsidir.

Daha sonra QMİ-nin 20 Yanvar faciəsinin 30-cu ildönümü münasibətilə bəyanatı oxunub.

Sonda 20 Yanvar faciəsi ilə bağlı sənədli film nümayiş etdirilib.

# DƏYƏRLƏRDƏN DOĞAN MİLLİ MARAQ

Milli marağı siyasət, dəyərləri isə tarixi inkişaf formalaşdırır. Lakin qloballaşma dövründə şahidi olduğumuz sürətli inkişaf bəzən milli dəyərlərə zidd ideologiyaların yayılmasına gətirib çıxarır. Bu səbəbdən milli dəyərləri qorumaq və təbliğ etmək öz aktuallığını qoruyub saxlamaqdadır. Məqalənin əhatə etdiyi mövzunu daha da açmaq üçün bir neçə məqama aydınlıq gətirmək yaxşı olar.

***Dəyər nədir?*** Dəyər inandığımız, onun üçün yaşadığımız və ömrümüzün sonunadək özümüzlə daşıdığımız mənəvi qida və maddi nəsnədir.

***Dəyərləri qorumaq niyə vacibdir?*** Dəyərlər fərdlərin bir-birinə münasibətində seçiminə, eləcə də seçimlərin mühakimə edilməsinə bələdçilik edən əsas vasitədir. Eyni zamanda, başqalarına qarşı davranış və hisslərimizə təsir edir.

***Hansı amillər dəyərlərin formalaşmasında mühüm rol oynayır?*** Ailə, məktəblər, ibadət yerləri, cəmiyyət, mədəni irs, iş yeri, siyasi görüşlər və kütləvi informasiya vasitələri dəyərlərin formalaşmasında mühüm rol oynayır.

Dəyərlər özlüyündə iki hissəyə bölünür. Universal və milli dəyərlər. Səmimiyyət, hörmət, ədalət, bərabərlik, çalışqanlıq, həmrəylik, məsuliyyət, intizam və s. universal dəyərlər hesab olunur. Milli dəyərlərə isə xalqın adət-ənənəsi, dil, din, atributlar, qəhrəmanlıq, vərdişlər, musiqi, incəsənət, teatr, ailə, milli mətbəx, və s. daxildir. Nəsillər arasında dəyərlərə loyallığın davamlılığını təmin və təbliğ etmək məqsədilə həm fərd və cəmiyyət, həm də dövlət tərəfindən gözlənilməli olan beş əsas meyara diqqət yetirək.

1. **Ardıcıllıq** (consistency): fərdin cəmiyyət, cəmiyyətin dövlət, dövlətin həm fərd və cəmiyyət qarşısında fikir, söz və hərəkətlərinin üst-üstə düşməsi, ümumi rifah üçün müəyyən və dəyişməz olaraq qalması nəzərdə tutulur;
2. **Dözümlülük** (tolerantlıq): bu isə bir fərdin və ya cəmiyyətin malik olduğu keyfiyyətdir. Bu keyfiyyət bizə imkan verir ki, fərqli düşünən, fərqli geyinən və davranan insanlarla eyni çətir altında yaşayaq və işləyək - hətta onların həyat tərzlərini bəyənməsək belə;
3. **Ədalət:** başqasına qarşı dürüst olmaq, mövcud resursların hər kəsin bərabər olacağı şəkildə bölünməsi, qərəzsizlik və s. kimi meyarlara ciddi əməl edilməsidir;
4. **Səmimiyyət:** mənəvi dəyərlərə və prinsiplərə qarşı dəyişməz mövqe göstərmək sözügedən anlayışın açıqlaması kimi çıxış edə bilər. Burada əsas məqam ondan ibarətdir ki, istər fərdlər arasında münasibət, istər fərdlə cəmiyyət arasında münasibət, istərsə də cəmiyyətlə dövlət arasında münasibət açıq dialoqa əsaslanmalıdır;
5. **Etimad və ya inam:** qarşılıqlı münasibətdə gözlənilən nəticə və ya hərəkət.

Qeyd olunan meyarların Azərbaycanda fərd, cəmiyyət və dövlət tərəfindən necə izləndiyinə nəzər salaq. Belə ki, ölkənin etnik və mədəni xəritəsinə baxdıqda dil, din, mədəniyyət baxımında müxtəlif olan bir coğrafiyada müsəlman, xristian və yəhudinin, türk, avar, udin, ləzgi, talış, kürd, tat, saxur və s. ilə bir çətir altında dinc birgəyaşayışın yüksək səviyyədə inkişafına şahid oluruq. Bəs bunun səbəbi nədir? Buna onlarla səbəb göstərmək mümkündür. Bunlardan biri etnik amildir. Xalqımızın mütləq əksəriyyətini təşkil edən türklərdə kimlik iyerarxiyasının əsas mərtəbələrindən biri əxlaq anlayışıdır.

"İgidlik, qoçaqlıq, mərdlik və comərdlik kimi əxlaqi xüsusiyyətlərə böyük önəm verən türklər xəyanəti, yalanı bağışlamaz, dürüst, xeyirxah və mərhəmətli insanı yüksək qiymətləndirərdilər. Onlara görə, bu əxlaqi keyfiyyətlərə malik insan hansı dinə və mədəniyyətə mənsub olmasından asılı olmayaraq, hörmətə layiqdir". (Gündüz İsmayılov. *"Tolerantlıq: Bildiklərimiz və bilmədiklərimiz"*)

Nəticədə dəyərə çevrilən tolerantlığı, hörməti, loyallığı, qarşılıqlı anlaşmanı, səmimiyyəti qorumaq Azərbaycan dövlətinin ümdə vəzifəsinə çevrilmişdir. Nümunə kimi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında qeyd edilmiş *"dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi; Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi"*, habelə milli və dini tolerantlıq mühitinin qorunmasına dair bəndlərini göstərmək olar.

Milli maraqdan doğan siyasət diktə etdi ki, cəmiyyətin sahib olduğu həm universal, həm də milli dəyərləri qorumaq siyasi iradədə də öz əksini tapsın. Həmin siyasətin təzahürü kimi 2016-cı ilin Prezident İlham Əliyev tərəfindən "Multikulturalizm İli" və 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" elan edilməsini, həmçinin ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmaların maddi texniki bazasının gücləndirilməsi, onların fəaliyyətlərinin dəstəklənməsi məqsədilə dövlət başçısı tərəfindən təkcə 2019-cu ildə ümumilikdə 3,2 milyon manat maliyyə yardımının ayrılmasını göstərmək olar.

Dövlət tərəfindən bu sahədə atılan mühüm addımlardan biri də institusional bazanın yaradılması olmuşdur. Belə ki, Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılmışdır. Fonda mənəvi dəyərlərin qorunması, onların araşdırılması və gənclər arasında geniş təbliği tapşırılmışdır.

Bütün sadalananlar fəxrlə deməyə əsas verir ki, Azərbaycan nadir ölkələrdəndir ki, burada ümummilli dəyərlərin milli maraqlar kontekstində təzahürünü həm siyasi iradədə, həm normativ-hüquqi aktlarda, həm də idarəetmə sistemində görmək mümkündür.

**Rəfi QURBANOV**

# 20 YANVAR FACİƏSİ AZƏRBAYCAN XALQININ MÜSTƏQİLLİK MÜBARİZƏSİNİN RƏMZİDİR




Biz 20 Yanvarı Azərbaycan xalqının qəhrəmanlıq günü kimi qeyd edirik. 20 Yanvar Azərbaycan xalqının suverenliyi, müstəqilliyi və azadlığı uğrunda apardığı mübarizənin rəmzidir.

Bu fikirləri jurnalistlərə müsahibəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib.

M.Qurbanlı qeyd edib ki, bu müqəddəs məkanda uyuyan şəhidlər Azərbaycanın müstəqilliyi uğrunda canlarını fəda ediblər. 20 Yanvar Azərbaycan tarixində dönüş nöqtəsidir. Xüsusilə, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölkəmizdə başlayan ümumxalq hərəkatı 20 Yanvardan sonra milli azadlıq hərəkatı mərhələsinə daxil olub. Faciədən dərhal sonra Ulu Öndər Heydər Əliyevin Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək kəskin bəyanatla çıxış etməsi xalqımızın mübarizə ruhunu daha da gücləndirdi. 20 Yanvar faciəsindən sonra bütün dünya Azərbaycanı müstəqillik uğrunda sovet ittifaqına qarşı mübarizədə ön sıralarda olan xalq kimi tanıdı. Biz həmişə olduğu kimi şəhidlərimizlə fəxr edir, Allahdan onlara rəhmət diləyirik.

# KÖNÜLLÜLÜK: TARİXÇƏSİ VƏ STRATEGİYASI

Bu gün dünyanın bir çox ölkəsində könüllü iş gündəlik sosial təcrübəni təşkil edir: insanlar ağac əkmək, sağlam həyat tərzini təbliğ etmək, ekoloji aksiyalar keçirmək, konfranslar, forumlar təşkil etmək, hüquqpozmalarının profilaktikasını həyata keçirmək və ümumi problemləri həll etmək üçün bir yerə toplaşırlar. Qlobal səviyyədə könüllü işin unikal xüsusiyyətləri və imkanlarını qeyd edən BMT öz qətnamələrində könüllülüyün dövlətlərin sosial-iqtisadi inkişaf üzrə milli strategiyalarının tərkib hissəsinə daxil olunmasını tövsiyə edir ki, son onilliklərdə bu, Azərbaycanda da geniş şəkildə özünü göstərir.

Belə ki, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Könüllü fəaliyyət haqqında" Qanun imzalamışdır. Bundan başqa, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nın məqsəd və vəzifələrinə ölkədə könüllülük hərəkatını inkişaf etdirmək, gənclərin könüllülük hərəkatının stimullaşdırılması və yerlərdə intensivləşdirilməsi daxildir. Həmçinin dövlət başçısı 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanlarına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq, təcrübi biliklərini artırmaq, onların yaradıcı, innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoymuşdur: **"Azərbaycanda könüllülər hərəkatı geniş vüsət almışdır. Mən bunu çox alqışlayıram. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyir, xeyir gətirir. Könüllülər hərəkatının xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsadüfi deyil ki, bu sahədə gənclər öz rolunu oynayır. Könüllülər hərəkatı "ASAN xidmət"dən başladı və "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir"**.

Bu məqsədlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) də ötən il ərzində "Könüllü fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu nəzərə almaqla, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq çərçivəsində gənclər arasında "Könüllü fəaliyyət" layihəsini həyata keçirmişdir. 2 ay davam edən layihədə könüllülər DQİDK-nın bütün fəaliyyət istiqamətləri barədə məlumat əldə etmiş, o cümlədən Azərbaycanda dövlət-din münasibətlərini tənzimləyən qanunvericilik bazası ilə tanış olmuş, Dövlət Komitəsinin keçirdiyi tədbirlərin təşkili prosesində iştirak etmək imkanı əldə etmişlər. Təcrübə kursunu müvəffəqiyyətlə başa vurmuş gənclərə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən sertifikatlar təqdim olunmuşdur.

Bu sahədə atılan ən böyük addım isə heç şübhəsiz, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" imzaladığı Sərəncamdır. Bu addım gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır.

***Bəs könüllülük nədir, onun tarixçəsi hansı dövrə gedib çıxır, strategiyası nədən ibarətdir və ilk könüllülər kimlərdir?***

Bəşər tarixində elə bir cəmiyyət yoxdur ki, könüllü və qarşılıqsız yardım ideyaları ona yad olsun. Bir şəxsin və ya qrupun bütövlükdə cəmiyyətə, yaxud ayrı-ayrı şəxslərə etdiyi könüllü yardım bəşəriyyətin insani ideallarına qarşılıqsız xidmət ideyalarına əsaslanır, qazanc əldə etmək, ödəniş almaq və ya karyerada yüksəlmək məqsədi güdmür. O, qarşılıqlı yardımlaşmanın ənənəvi növlərindən tutmuş minlərlə insanın təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasına, münaqişə vəziyyətlərinin həllinə və yoxsulluğun aradan qaldırılmasına yönəlmiş birgə səylərinə qədər müxtəlif formalarda təzahür edə bilər.



Müasir Qərb sosiologiyasında "volunteerism" şəklində ifadə edilən könüllülük anlayışı ilə könüllü insanlar tərəfindən qarşılıq gözləmədən ictimai əhəmiyyətli hədəflərə çatmaq, cəmiyyətin problemlərini həll etmək məqsədilə həyata keçirilən fəaliyyət nəzərdə tutulur. Fransız dilindəki "volontaire" kəlməsi latıncadakı "voluntaries"dən törəmişdir və hərfi mənada "könüllü, istəkli" mənasını bildirir. XVIII-XIX əsrlərdə könüllü şəkildə hərbi xidmətə gedən insanları "volonter" adlandırırdılar. Belə ki, bəzi dövlətlərdə ümumi hərbi xidmət sisteminin tətbiqindən əvvəl könüllülük sistemi ordularын yığılmasının əsasını təşkil edirdi. XVIII əsrdə və XIX əsrin birinci yarısında Avstriya-Macarıstan, Fransa və İtaliyada nizami orduya birləşmiş könüllülərdən ibarət batalyon və alaylar mövcud idi. Ancaq XIX əsrin ikinci yarısında əksər dövlətlərdə bu cür könüllülük sistemi öz əhəmiyyətini itirdi.

Yalnız XX əsrdə Avropa qitəsində könüllülük ümumi sosial fenomen xüsusiyyətləri qazanmağa başlamışdır. Birinci Dünya müharibəsindən sonra 1920-ci ildə Strasburq yaxınlığında alman və fransız gənclərinin iştirakı ilə ilk könüllü layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində könüllülər alman və fransız qoşunları arasında baş vermiş şiddətli döyüş bölgəsində dağıdılmış fermaları bərpa etmişlər. O vaxtdan bəri könüllülük dünyada genişlənməyə və populyarlıq qazanmağa başlamışdır. Statistik məlumatlar göstərir ki, XX əsrin 90-cı illərində könüllülərin işi ABŞ və Avropa ölkələri üçün əhəmiyyətli iqtisadi mənbəyə çevrilmişdir.

2001-ci il isə dünyada "Könüllülər ili" elan edilmiş və elə həmin ilin yanvarında Ümumdünya Könüllülər Bəyannaməsi qəbul edilmişdi. Bəyannamədə deyilir ki, könüllülük vətəndaş cəmiyyətinin təməli, insani dəyərlərin qorunması, möhkəmləndirilməsi, fərdi inkişaf yolu, habelə insan potensialının dərki ilə vətəndaşların hüquq və vəzifələrinin həyata keçirilməsidir. Könüllülük, eyni zamanda, BMT-nin xalqların dünyanı dəyişdirmək gücünə sahib olduğu fikrini reallaşdıraraq ölkələrin inkişafında bir amil ola bilər.

Bəyannamə 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və 1989-cu il Uşaq Hüquqları haqqında Beynəlxalq Konvensiyaya uyğun hazırlanmışdır və "hər hansı bir insanın dinc birliklərə sərbəst qoşulmaq hüququ var" prinsipindən irəli gəlir.

Könüllülüyün ümumi məqsəd və vəzifələrindən çıxış edərək deyə bilərik ki, könüllü maddi qarşılıq gözləmədən çalışan və sosial cəhətdən əhəmiyyətli layihələrin həyata keçirilməsinə töhfə vermək istəyən şəxsdir. Könüllülər fəaliyyətlərini sosial, mədəni, iqtisadi və ekoloji inkişafın aləti olaraq görürlər. Bu zaman insanların motivasiyası olduqca vacibdir. Könüllülər hərəkatında könüllü kimi iştirak edən şəxs: 1) ödənişsiz, lakin ilkin hazırlıq və təlimə əsasən; 2) imkanları daxilində, lakin qabiliyyətlərindən aşağı deyil; 3) öz istəyi ilə və digər könüllülərlə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir.

Çox vaxt könüllü işin əsas motivini digər insanlarla ünsiyyətə girmək ehtiyacı və tənhalıq hissinin aradan qaldırılması təşkil edir. Könüllülük insanın dəyərləri və hədəflərini özünə uyğun bildiyi hər hansı bir qrupun üzvü olmaq kimi təbii ehtiyacını qarşılayır. Təcrübə göstərir ki, çox vaxt insanlar yalnız peşələrinə uyğun işləməklə özlərini reallaşdıra bilmirlər. Bu zaman könüllü iş rutin həyatdan qaçmağa və ona rəngarənglik qatmağa imkan verir. Könüllü iş insana təkcə hansısa problemlərin həllində iştirak etmək və kiməsə faydalı olmaq imkanı vermir, həm də yeni insanlarla ünsiyyətə girməyə, özündən məmnunluq hissinin təmin edilməsinə kömək edir. Aparılan sorğulara əsasən də məlum olur ki, xüsusilə tələbələr üçün könüllü işlərdə iştirak etməkdə əsas səbəblər bunlardır: ehtiyacı olan insanlara kömək etmək; öz fəaliyyətindən zövq almaq; yeni şeylər öyrənmək və maraqlı, əhəmiyyətli insanlarla ünsiyyətdə olmaq.

Bu gün könüllülük institutu dünyanın bir çox ölkəsində cəmiyyətin inkişafı üçün getdikcə vacib pedaqoji mənbəyə çevrilir. Bu işdə təhsil səviyyəsindən, peşəsindən və gəlirindən asılı olmayaraq boş vaxtını könüllü işə həsr etmək istəyən və məsuliyyət keyfiyyətinə sahib olan əhalinin bütün təbəqələri iştirak edə bilər. İctimai faydalı işlərdə vətəndaş iştirakının bir forması olan könüllü fəaliyyətin əsas xüsusiyyəti qarşılıqlı kollektiv əlaqə üsulu və aktual sosial-pedaqoji problemlərin həllində təsirli mexanizm olmasıdır. Könüllülər humanitar yardım və texniki dəstək göstərilməsi, insan haqlarının qorunması, cəmiyyətin demokratikləşməsi, həmçinin sülhün möhkəmlənməsi üzrə istər milli, istərsə də BMT-nin proqramları çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə ümumi rifahın inkişafında əhəmiyyətli rol oynamışlar, bu gün də oynamağa davam edirlər.

**Güney NAMAZOVA**

## MÜDAFİƏ NAZİRLİYİ İLƏ DÖVLƏT KOMİTƏSİ ARASINDA İLLİK FƏALİYYƏT PLANI İMZALANIB

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2020-ci il üçün birgə fəaliyyət planı imzalanıb. Sənədə əsasən keçiriləcək tədbirlərin yeri, icra vaxtı, icraya məsul qurumlar və şəxslər müəyyənləşdirilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

## HOLOKOST QURBANLARININ BEYNƏLXALQ ANIM GÜNÜ BAKIDA QEYD OLUNUB



Yanvarın 27-də Bakıda Beynəlxalq Holokost Qurbanlarının Anım Günü ilə əlaqədar mərasim keçirilib.

Mərasimdə çıxış edən Avropa Yəhudilərinin Bakı Dini İcmasının sədri Aleksandr Şarovski yəhudi xalqına qarşı törədilən soyqırımından danışıb. Qeyd edib ki, Azərbaycan yəhudi xalqının təhlükəsiz şəraitdə yaşadığı ölkədir. İkinci Dünya müharibəsi zamanı da onlar ölkəmizdə tam təhlükəsiz şəraitdə yaşayıblar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, altı milyon günahsız insanın ancaq dini və milli mənsubiyyətinə görə qətlə yetirilməsi dəhşətli hadisədir. Bu hadisələr hər zaman insanları çox təsirləndirəcək. Yəhudi xalqının, Azərbaycan yəhudilərinin və həmvətənlərimizin dərdini, qəmini dərindən anlayırıq. Əlbəttə ki, faciənin əhatə dairəsi böyük və ya kiçik olmur. Faşizm, ksenofobiya bu gün də yaşayır. Bu, bəşəriyyətin faciəsidir.

Komitə sədri qeyd edib ki, XX əsrin sonlarında belə bir faciə Azərbaycan xalqının da başına gətirilib. Günahsız insanlar məhz azərbaycanlı olduqlarına görə Xocalıda qəddarlıqla qətlə yetiriliblər.

Sonra çıxış edən İsrailin Azərbaycandakı səfiri Corc Dik deyib ki, bu gün tək Holokost qurbanlarının deyil, faşizm qurbanlarının da xatirəsi anılır. Bu gün, həmçinin yəhudiləri zülmdən azad etmək üçün özünü qurban vermiş azərbaycanlıların da xatirəsi yad edilir: "İrqçiliyə görə törədilən belə cinayətlər təkcə bir xalq üçün deyil, bütün bəşəriyyət üçün təhlükədir. Bu təhlükəni bir daha yaşamamaq, bundan yayınmaq üçün keçmişi unutmamaqla gələcəyi qurmaq lazımdır. Tolerant birgəyaşayışın alternativi yoxdur".

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, yetmiş beş il bundan əvvəl baş verən hadisə beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurur. Ancaq insanlıq bundan kifayət qədər dərs götürməyib. Çünki XX əsrin sonlarında Xocalı faciəsi törədildi. Holokostu və Xocalını unutmayaq.

Avropa yəhudiləri icmasının baş ravvini Şneyor Seqal yəhudi xalqının İkinci Dünya müharibəsi zamanı üzləşdiyi faciədən bəhs edib. O əlavə edib ki, Holokost dünya ictimaiyyətinin üzləşdiyi bəşəri cinayətdir.

# ƏHMƏD BƏY AĞAOĞLUNUN GÖZÜ İLƏ: DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

*Azərbaycan xalqının milli varlığını qoruyub saxlamaq uğrunda mübarizəyə başladığı XIX əsrin sonu XX əsrin əvvəllərində maarifçi ziyalılarımız böyük xidmətlər göstərmişlər. Onların arasında fikirləri günümüzdə də öz aktuallığını qoruyub saxlayan Əhməd bəy Ağaoğlunun adı şükranla çəkilməlidir. Bu görkəmli ziyalımız ədəbi, publisistik, ictimai-siyasi fəaliyyəti ilə təkcə Azərbaycanın deyil, bütövlükdə türk dünyasının mədəni, sosial və siyasi həyatında böyük rol oynamışdır.*

Təsadüfi deyil ki, Əhməd bəy Ağaoğlunu tarixin ən böyük türk ideoloqlarından biri hesab edirlər. O bu sahədə çox ciddi fəaliyyəti ilə tanınıb. Xüsusilə, Osmanlı imperiyasının süqutu dövründə və Türkiyə Respublikasının qurulduğu ilk iyirmi ildə bir hissəsi olduğu cəmiyyətin ən təsirli və hərəkətli fikir adamlarından biri idi. Ancaq onun türkçülüklə və bütövlükdə siyasi fikirləri ilə yanaşı, irəli sürdüyü dini fikirləri də dövrünün sosial həyatında ciddi müzakirə mövzusu olmuşdur. Belə ki, Türkiyənin yaşadığı həmin keçid mərhələsində İslamın ictimai-siyasi həyatda yeri və rolu barədə mətbuatda çox ciddi ictimai polemikalar aparılırdı. Bu diskussiyaların nəticəsində cəmiyyəti dinin və ənənələrin təsirindən azad etmək üçün bir çox tutarlı və rasional fikir ortaya çıxmışdı.

Həmin müzakirələrin ən aktiv iştirakçılarından biri olan Əhməd bəy Ağaoğlu deyirdi ki, şəriətin dövlətə və dünyəvi hüquqa təsiri toplumun çağdaşlaşmasına mane olur. Buna görə də o, osmançılıq və islamçılıq axınlarını müdafiə edənlərə qarşı apardığı siyasi mübahisələrdə dinin dövlətdən və dünyəvi hüquqdan ayrılmalı olduğunu konkret şəkildə bəyan etmişdir. Ə.Ağaoğlu Qərb mədəniyyətini Şərqə gətirən insan idi. Xüsusilə, Fransada hüquq təhsili alması onun hüquqda dünyəviliyin əhəmiyyətinə əmin olduğunu göstərir.

Elə buna görə də o, dövlət quruluşuna şəriət qanunlarını topluma və hüquq qaydalarına tətbiq etmək düşüncəsində olanları kəskin tənqid etmiş, toplumun tərəqqisi üçün dinin dövlət həyatından və toplumu istiqamətləndirən qurumlardan ayrılmalı olduğu fikrini müdafiə etmişdir. Ə.Ağaoğlu bu barədə fikirlərini "Üç Mədəniyyət" əsərində geniş şəkildə açıqlamışdır. O yazırdı ki, dinin dövlət həyatını nizamlayan qurumlara



təsiri cəmiyyətə zərər vurur; əslində, din həyatımızın maddi və mənəvi sahəsini əhatə edən prinsiplər toplusudur. Bu baxımdan Əhməd bəy Ağaoğlunun fikirləri ilə Mustafa Kamal Atatürkün dünyəviliklə bağlı düşüncələri oxşardır. Atatürk deyirdi: "Din - vicdan məsələsidir. Hər kəs vicdanının əmrinə əməl etməkdə sərbəstdir. Biz dinə saygı göstəririk. Düşüncə və təfəkkürün əleyhinə deyilik. Biz sadəcə din işlərini millət və dövlət işləri ilə qarşıdırmamağa çalışırıq... Mürtəcelərə qətiyyən fürsət verməyəcəyik". Atatürkçülükdəki dünyəvilik yalnız dini və dünyəvi işlərin ayrılması deyil, hər kəsə vicdan, ibadət və din azadlığının verilməsidir. Ə.Ağaoğlu da məsələyə eyni aspektdən yanaşaraq deyirdi ki, "Din qul ilə Allahın arasını nizama salan prinsiplər sistemindən ibarətdir". Din və vicdan hürriyyətinin dünyəvi sistemdə, ictimaiyyətdən ayrılmış, yalnız fərdi-toplumsal dəyər kimi qəbul edilməsi fikrini Ə.Ağaoğlunun bu mövzuda yazdığı bütün məqalələrində görürük.

O, İslamı hüquq sistemi kimi deyil, bəndə ilə Allahın arasındakı inanc və ibadət sistemi kimi şərh edir, düşüncələrini bu təməl üzərində qururdu. Onun fikrincə, dinin əsas mövzusu inanc və ibadətlərdir. İslamı başqa dinlərdən fərqləndirən, müsəlmanları da bir arada tutan məhz bu prinsiplərdir. Ə.Ağaoğluna görə, hüquq təbiəti etibarı ilə dəyişkəndir. Din isə ilahi məzmunlu əsasları ilə dəyişə bilməz. Bu o deməkdir ki, zamanla dəyişən insani ehtiyac və dünyəvi məsələləri tənzimləyən hüquq dinin əsl mövzusu ola bilməz.

Ə.Ağaoğlu qeyd edir ki, əsas problem dində deyil, yeganə səlahiyyəti özlərində görən, şərtləri, fərdin və cəmiyyətin ehtiyaclarını nəzərə almayan, həyatı, maddi-mənəvi inkişafı dayandıran, elmdə, əxlaqda, hüquqda, siyasətdə, qısası, hər şeydə köhnə ənənələrə əsaslanan, yeniliyə, dəyişikliyə qarşı amansız olan zehniyyətdədir.

Əhməd Ağaoğlunun din ilə dünyanın qarşılıqlı münasibətləri barədə bu düşüncələri və irəli sürdüyü reformist yanaşma müasir ənənəvi cəmiyyətlərin bugünkü ürəkaçmayan vəziyyəti baxımından da xeyli ibrətamizdir: "İndi bir tərəfdən bir cəmiyyəti düşünün ki öz həyatını tənzimləmədə, yəni qanun yaratmada tamamilə sərbəstdir, digər tərəfdən də başqa bir cəmiyyət təsəvvür edin ki, bu sərbəstlikdən məhrum olsun, bir nöqtədə durub dayansın. Aydındır ki, birincisi həyatını daim zaman və məkana uyğun bir tərzdə təşkil etmiş və tərtib etmiş olacaq; ikincisi daim zaman və məkandan geri qalmış olacaq".

**Ramil Hikmət**

# TURİZMİN İNKİŞAFINDA MƏDƏNİ MÜXTƏLİKLİK AMİLİ

**“Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir”**

*Azərbaycan Respublikasının Prezidenti*
***İlham Əliyev***

XX əsrdə turizm və mədəniyyət destinasiyanın (turistlərin ehtiyaclarını qarşılamaq üçün hər cür şəraiti, imkanları və xidmətləri olan mərkəz) ayrı-ayrı aspektləri kimi nəzərdən keçirilirdi. Turizm gündəlik həyatdan və yerli əhalinin mədəniyyətindən ayrı, əsasən, istirahət ilə əlaqəli fəaliyyət kimi qiymətləndirilirdi. Bu yanaşma XX əsrin sonlarına doğru dəyişməyə başladı. Mədəni sərvətlər və turizm arasındakı bağlılıq, mədəni sərvətlərin turizm resursu kimi qavranılması “mədəni turizm” anlayışının meydana çıxmasına səbəb oldu. Xüsusilə, 1980-ci illərdən etibarən “mədəni turizm” bir çox ölkə üçün iqtisadi inkişafın əsas mənbəyinə çevrildi. Qloballaşan dünyada mədəni müxtəlifliyə və qeyri-maddi mədəni irsə artan maraq, digər mədəniyyətlərlə daha asan tanış olmaq imkanı, yeni texnologiyalar vasitəsi ilə mədəniyyət və turizm haqqında məlumatların daha əlçatan olması da əhalinin məşğulluğunu və gəlirini stimullaşdıran mədəni turizmin inkişafına gətirib çıxardı.

BMT-nin Ümumdünya Turizm Təşkilatının “Turizmdə anlayışlar” sənədində “mədəni turizm” səyahət edilən ölkənin (yerin) maddi və qeyri-maddi mədəni irsi ilə tanışlıq məqsədi daşıyan turizm növü kimi müəyyən edilmişdir. Mədəni turizm regionların mədəni irsini, əhalisinin həyat tərzini, tarixini, incəsənətini, memarlığını, dinini və s. əhatə edir; şəhərlərdə, həmçinin kənd yerlərində tarixi məkanları, mədəniyyət obyektləri olan qoruqları, abidələri, muzeyləri, teatrları, köhnə və yeni memarlıq nümunələrini, eləcə də yerli əhalinin həyat tərzini və milli dəyərlərini əks etdirən festival və bayramları ziyarəti nəzərdə tutur.

Bu gün mədəni turizm qlobal turizm bazarının ən geniş və sürətlə inkişaf edən sahəsidir. Ziyarət edilən mədəni irsə aid ərazinin ümumi aurası, məşhur insanlarla bağlılığı, ideyalar və hadisələr, bir sözlə, həmin yerin mədəniyyəti, tarixi və adət-ənənələri kimi qeyri-maddi faktorlar turistləri daha çox cəlb edir.

Ölkəmiz də muzeyləri, teatrları, arxeoloji və tarixi yerləri, musiqisi, qastronomiyası və s. bənzərsiz və müxtəlif mədəni irsi ilə regionda əsas mədəni turizm destinasiyalarından birinə çevrilmişdir. Bu da ölkənin iqtisadi və sosial inkişafına, məşğulluq səviyyəsinin artmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə gətirib çıxarmışdır.



Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı ölkə olması da turistlər tərəfindən maraqla qarşılanan aspektlərdəndir. Belə ki, burada bütün dinlərin və etnik qrupların nümayəndələrinin qarşılıqlı sülh, əmin-amanlıq şəraitdə yaşaması xarici vətəndaşların marağına səbəb olur. Üstəlik, mədəni müxtəliflik çox vaxt adət-ənənələrdə öz əksini tapır. Bu da mədəni dəyərləri özündə cəmləşdirən turizmin cəlbediciliyini artırır. Bundan başqa, mədəni müxtəliflik turistlərlə yerli əhali arasında körpü yaradır.

Azərbaycan Respublikasının ərazisində mədəni irs nümunələrinin mədəni turizmin inkişafı üçün resurs olması, təhlil edilib turizm məhsuluna çevrilməsi vacib müzakirə mövzusu kimi önə çıxır. Bu baxımdan, ölkə ərazisində həm müxtəlif tarixi dövrlərə aid dövlət və imperiyaların (Səfəvi, Osmanlı, Sasani, çar Rusiyası və s.), müxtəlif dini və konfessional qrupların (Zərdüştilik, Yəhudilik, Xristianlıq, İslam, alban paqan inancları, türk xalqlarına aid şamanizm və s.), müxtəlif tarixi proseslərlə əlaqədar burada mövcud olmuş, müvəqqəti yaşamış, müxtəlif köç proseslərinə məruz qalmış, hazırda mövcud olan kiçik avtoxton xalqların (alban-udi, qafqazdilli xalqlar, almanlar, hindlilər, polyaklar və s.) tarix və mədəniyyətinə aid müxtəlif maddi və qeyri-maddi irs nümunələrinin qorunması, inkişafı, dövlət mühafizəsinə götürülməsi mədəni turizmin inkişaf potensialının daha da artmasına xidmət edir. Həmçinin, müxtəlif sufi xanəgah, zaviyə və türbələri, xalq dini inanclarına, folklora, şifahi və yazılı xalq ədəbiyyatına aid pirlər, ziyarətgahlar, müqəddəs şəxsiyyətlərlə bağlı məzar yerləri (məsələn, Şamaxı şəhərində Nəsiminin qardaşı Şeyx Xəndana aid türbə), lokal ənənələrlə bağlı təbiət abidələri (çoxəsrlik Xan çinarı və digər ağaclar), multikultural tarixi keçmişimizə bariz nümunə olan festivallar (məsələn, Gürmükoba festivalı) bu günə qədər mədəni və tarixi dəyərə sahib elmi-tədqiqat obyektləri kimi təhlil edilsə də, artıq mədəni turizm resursu kimi turizm sənayesinin diqqətini cəlb edir, turizm məhsuluna çevrilir. Bu da öz növbəsində dünya miqyasında turizm bazarında ölkələr arasında artan kəskin rəqabət mühitində ölkəmizin turizm məhsullarının yeknəsəkliyindən azad olması, məzmunca daha fərqli, turizm təcrübəsi nöqteyi-nəzərindən daha orijinal məhsullarla fərqlənməsi, ziyarətçilər üçün turizm məhsulları təkliflərinin yaş kateqoriyası və maraq dairələrinə görə daha rəngarəng hazırlanması baxımından olduqca əhəmiyyətlidir.

**Vüsalə ALIYEVA**

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, milli-mənəvi dəyərlərin təbliği, eyni zamanda gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması istiqamətində maarifləndirmə işini davam etdirir. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən tədbirlər DQİDK-nın təşkilatçılığı ilə, həmçinin Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən olan tədbirlər:*

**7 yanvar** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad Rayon İcra Hakimiyyəti (RİH) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə;

**9 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin, Balakən RİH-in və Balakən Rayon Təhsil Şöbəsinin (RTŞ) birgə təşkilatçılığı ilə Balakən şəhəri Nəsimi adına 2 saylı tam orta məktəbdə “Dini radikalizmlə mübarizədə gənclərin rolu” mövzusunda;

**14 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH-in və Zaqatala RTŞ-nin birgə təşkilatçılığı ilə Zaqatala rayon Əliabad qəsəbə 4 №-li tam orta məktəbində “Milli-mənəvi dəyərlərin gənclərin vətənpərvər şəxsiyyət olaraq formalaşmasındakı rolu” mövzusunda;

**16 yanvar** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Rayon Polis Şöbəsinin (RPŞ) təşkilatçılığı ilə “Dini radikalizm və narkomaniya ilə mübarizədə maarifləndirmə işinin əhəmiyyəti” mövzusunda; Göyçay RİH, Göyçay RPŞ və DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə “Dini radikalizmlə mübarizədə təhsilin rolu” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi;

**21 yanvar** – Saatlı RİH və DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Saatlı rayon Dəllər kənd məscidində “Vətən sevgisi – şəhidlik zirvəsi” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala RTŞ-nin birgə təşkilatçılığı ilə Zaqatala rayon Gözbarax kənd tam orta məktəbində 20 Yanvar hadisəsinin 30-cu ildönümünə həsr olunmuş maarifləndirici tədbir;

**22 yanvar** –DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə “Milli-mənəvi və ailə dəyərlərimizin təbliği” mövzusunda; DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətin birgə təşkilatçılığı ilə 6 və 15 saylı cəzaçəkmə müəssisələrində “Dünyəvi dövlətdə dinin yeri və rolu” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi, Lənkəran Şəhər Təhsil Şöbəsi və Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə şəhərin R.Bədəlov adına 9 saylı tam orta məktəbində “Gənclərin dini radikalizm, narkomaniya və digər zərərli vərdişlərdən qorunması” mövzusunda;

**23 yanvar** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və DQİDK tərəfindən birgə imzalanan "Tədbirlər Planına" əsasən DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan RİH və Beyləqan rayon “N” saylı hərbi hissənin birgə təşkilatçılığı ilə “Vətənpərvərlik milli-mənəvi dəyərlərimizin və Azərbaycançılıq ideologiyasının əsas elementlərindən biridir” mövzusunda tədbirlər keçirilmişdir.

Dini radikalizm, ekstremizm kimi məsələlərə toxunulub, çıxış edən natiqlər gənclərin bu yollardan uzaq durmalı olduqlarını vurğulayıblar. Qeyd olunub ki, gənclərin belə radikal qrupların təsirinə düşməməsi üçün mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Həmçinin bildirilib ki, milli-mənəvi, tolerant və multikultural dəyərlərimizin qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Çıxışlarda vurğulanıb ki, məhz görülən bu işlər nəticəsində gənc nəsildə Vətənə məhəbbət hissi daha da artmaqla yanaşı, qeyri-ənənəvi dini cərəyanlara maraq azalıb. Eyni zamanda, tədbirlərdə gənclərin narkomaniya, erkən nikah kimi zərərli meyillərdən uzaq tutulması və bu sahədə qarşıda duran vəzifələrdən danışılıb.

Bundan başqa, ay ərzində Dini Qurumlarla İş Dövlət Komitəsinin bölgə şöbələri, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) mərkəzləri, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazıları və rayon icra hakimiyyətlərinin birgə təşəbbüsü ilə 20 Yanvar hadisələrinin 30 illiyinə həsr edilmiş tədbirlər təşkil olunub, şəhidlər xiyabanları ziyarət edilib.

# İLHAM MƏMMƏDZADƏ: "QURANI TƏHLİL ETMƏK, SUALLAR VERMƏK, YENİ MƏNALAR AXTARMAQ LAZIMDIR"

*AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru İlham Məmmədzadənin "Cəmiyyət və Din" qəzetinə müsahibəsi.*



**- Söhbətə din və fəlsəfə mövzusu ilə başlamaq istəyirəm. Yəqin, təkcə bizim deyil, əksər cəmiyyətlərdə düşünürlər ki, fəlsəfə ilə məşğul olanların çoxu ateistdir, fəlsəfə ateizmə aparır. Bəs siz necə düşünürsünüz, fəlsəfədən teizmə və fəlsəfədən ateizmə necə addımdır?**

- Maraqlı sualdır və bu məsələ hamını maraqlandırır. Bugünlərdə mənə Moskvada çap olunan "Voprosı filosofii" ("Fəlsəfənin sualları") jurnalından rəy yazmağım üçün bir məqalə göndərmişdilər. Məqalədə deyilir ki, fəlsəfədə sivillik, ateizm və dindarlıq olar bilər. Məqalə zəif idi, söhbət ondan getmir. Maraqlıdır ki, dindarlıq və sivillik necə bağlı olmalıdır? Məncə, bu məsələ fəlsəfəyə daha yaxındır, nəinki ateizm, dindarlıq və sairəyə. Necə edək ki, dindarlıq sivilliklə bağlı olsun? Bəzən unuduruq ki, dindar adam da sivil ola bilər. Hansısa mənada dini daxili aləmi, ruh ilə bağlı öz seçimini edir. Amma sivillik odur ki, adam sivil ölkədə yaşayır, səs verir və bu ölkədə din dövlətdən ayrıdır. Məncə, bu düzgündür. Bu o deməkdir ki, insan həm

> *Sovet dövründə fəlsəfə ateizmlə bağlı idi. Halbuki müəyyən filosoflar gizli olaraq dinə inanırdılar, ancaq özlərindən soruşanda deyirdilər ki, ateistəm.*

sivil, həm də dinlə bağlı ola bilər. Dinlə bağlılıq insanın öz işidir. Vətəndaş isə sivil olmalıdır. Fəlsəfədə necədir? Sovet dövründə fəlsəfə ateizmlə bağlı idi. Halbuki müəyyən filosoflar gizli olaraq dinə inanırdılar, ancaq özlərindən soruşanda deyirdilər ki, ateistəm. Amma ateistlər də var idi. Bu gün də fəlsəfədə və bütövlükdə elmdə ateistlik yox, daha dəqiq desək, skeptisizmlə bağlılıq mövcuddur. Niyə? Ona görə ki, məsələyə elmi aspektdən yanaşsaq, elmdə Mütləq varlıq (absolyut) ideyasını yoxlamaq mümkün deyil. Biz onu inamla qəbul edirik. Elm isə həmişə yoxlamaqla bağlıdır. Ona görə alim həmişə axtarışdadır. İnana bilər, amma bilmir ki, var, ya yoxdur. Bu, ateizm deyil. Mənim fikrimcə, insanlar, eləcə də alimlər və filosoflar inana bilərlər və inanırlar. Amma elmi aspektdən onu yoxlamaq və mütləq bir güc var demək çətindir. Onu nə fiziklər, nə də filosoflar deyə bilərlər. Buna yalnız inanmaq olar. Bu o demək deyil ki, dindar filosoflar yoxdur. Onlar da var, aydındır. Filosofların bir qismi Quranı ən böyük kitab qəbul edir. Amma onda sual yaranır ki, elm haradadır? Onda elm, sivil elm yox olur. Dünyəvi elmin yerinə, dini elm əmələ gəlir. O isə hansısa mənada bütün suallara cavab axtarır, amma Quranı sualsız qəbul edir. Filosof kimi hesab edirəm ki, Quranı təhlil etmək, suallar vermək, yeni mənalar axtarmaq lazımdır. Dinləri müqayisə etmək, onların əsaslarını axtarmaq olar. Misal üçün, sonuncu kitabımı hazırlayanda ortaya maraqlı mövzu çıxdı: fəlsəfə, mədəniyyət, tarix və müasirlik. Onu işləyərkən alimə Ziqmund Freydin "Musa və Monoteizm" adlı məqaləsi düşdü. Orada deyilir ki, təkallahlı dinlər qədim Misir dinləri ilə bağlıdır. Çox maraqlıdır və belə çıxır ki, Misirdən gələn ideyalar həm Yəhudiliyə, həm Xristianlığa, həm də İslam dininə təsir edib. Bu o deməkdir ki, dinlərin bir-biri ilə bağlığı və fərqləri elmi problemdir. O biri tərəfdən başa düşürəm ki, yaxşı dini filosof da ola bilər. O, Mütləq varlıq mövzusuna və Qurana toxunmur, amma filosof kimi maraqlı suallara münasibət bildirir, yazır, pozur və s. Məncə, filosofun dini inancını skeptisizm, aqnostisizm düşüncəsi daha çox ifadə edir.

**- Dediniz ki, insan həm filosof, həm də dindar ola bilər və əksinə. Bəlkə, onlar elmin və ya dinin dalana dirəndiyi məqamlarda cavab tapa bilmədikləri üçün ikisini də seçiblər?**

- Elmin hər zaman sərhədi var. Hansı ki, həmin sərhəddən o yana heç nə bilmirik və heç vaxt keçə bilməyəcəyik. Çünki o sərhəd zamanla irəliləyir. Yəni belə desək, elmdə nələrsə kəşf edildikcə sərhəd irəliləyir. Bilik çoxalır, hesab edirik ki, bilmədiyimiz şeylər azalır, amma reallıqda azalmır, bilmədiklərimiz də çoxalır. Ona görə sərhəd var. Bu sərhəd bizim beynimizdə də mövcuddur. Məsələn, biz hələ də bilmirik ki, şüurla necə təmin olunmuşuq. Bu problem bizə göstərir ki, inam və bilik bu sərhəddə birgə işləyə bilər. Amma bu yanlışdır, ona görə ki, bilmədiklərimizlə bağlı sual verən kimi alim, filosof, bioloq, neyrofizioloq oluruq. Burada yeni suallar əmələ gəlir, sərhəddə başa düşmədiyimiz sualları elmi tərəfdən verir, cavab axtarır və biliyimizi bir addım da çoxaldırıq. Amma dinə inanan adam həmin sərhəddə sual vermir. O çalışır inansın ki, bu suallara o yox, Mütləq varlıq cavab verir. Alim deyir ki, mən çox şeyi bilmirəm, amma özüm sual verəcəyəm. Yəni elm sual qoyacaq və cavab axtaracaq. Mütləq varlığa inanan isə deyir ki, bizə cavabı elə Mütləq varlıq verəcək, yaxud bu cavabı çoxdan verib, bizim işimiz o cavabı axtarmaq deyil, Qurana, Tövrata, İncilə baxmalı, cavabı orada axtarmalıyıq. Açığını deyim, bugünkü elmdə çox adam ən sonuncu yenilikləri bilmir, az oxuyur, yeni çıxan kitablardan xəbərsizdir. Bu problem alimlərə də, qeyrilərinə də aiddir. Deyirlər ki, insan anadan pak doğulur. Nobel mükafatçısı neyropsixoloq, fizioloq və filosof Stiven Artur Pinker isə deyir ki, biz o qədər də ağ vərəq deyilik, dəyişmişik. Bəlkə də, keçmişdə, hansısa mənada, pak idik, təmiz yaradılırdıq. Müasir insan isə fərqlənir, sanki doğulan andan müəyyən biliklərə sahib olur. Həqiqətən də, bugünkü uşaqlar fərqlidir, keçmişdəki kimi deyillər. Belə desək, çox inkişaf etmiş uşaqlar dünyaya gəlir. Pinker bu sahədə çox böyük işlər aparıb, onu oxuduqdan sonra fikirləşirəm ki, biz nə qədər çox şey bilmirik.

**- Fridrix Nitsşe "Allah öldü" ifadəsini ateist filosoflar cəbhəsinin nümayəndəsi kimi deyirdi, yoxsa cəmiyyətdə dəyərlərin korşalmasına eyham vururdu?**

- Nitsşe çətin oxunan filosoflardandır. 90-dan çox yaşı olan tanınmış filosof Yurgen Habermas deyir ki, müasir dövr Nitsşe fəlsəfəsinin dövrüdür. Onun bu fikri çox maraqlıdır, ona görə ki, Habermas özü də böyük filosofdur və maraqlı ideyaları var. Amma deyir ki, müasir dövr Nitsşe fəlsəfəsinin dövrüdür. Açığı, Nitsşenin bu sözləri deyəndə nə fikirləşdiyini demək çox çətindir. Onun danışığı çox mürəkkəb olub, aydın olmayıb. Məncə, "Allah öldü" deyəndə, faktiki olaraq Allahı nəzərdə tutmayıb. O, cəmiyyətin niyə çətin duruma düşdüyünün axtarışda idi. Nitsşe 1900-cü ildə vəfat edib, onun "Allah öldü" fikrindən sonra iki dünya müharibəsi olub, Yaponiyaya atom bombası atılıb. Belə çıxır ki, o, gələcəkdə baş verəcək hadisələri proqnozlaşdırırmış. Amma bununla yanaşı, Nitsşe hesab etmirdi ki, Allah "öləndən" sonra cəmiyyət məhv olacaq. O, yeni insan növünün yaranacağını gözləyirdi. Deyirdi ki, yeni dövrdə insan özü güclü olmalıdır. Bu məsələ çox maraqlıdır. Nitsşe ateistdi? Mən bilən, o, skeptik idi. Reallıq odur ki, müasir dövrdə Avropada ateistlər daha çoxdur. Ateistlər, skeptiklər ümumilikdə isə heç nəyə inanmayanlar və s. Bu proses paralel olaraq İslam dünyasında da gedir. Yəni inanmayanların sayı çoxalır. Amma bəzən dinə inanmayanlar, yəni qeyri-dindarlar pis işlərə əl atırlar. Bu, bizim xoşumuza gəlmir və fikirləşirəm ki, Nitsşenin də xoşuna gəlmirdi. Necə etmək lazımdır ki, insan bir tərəfdən elmli, sivil olsun, o biri tərəfdən inanmasın və pis işlərə əl atmasın? Bunu necə birləşdirmək olar? Bu, asan məsələ deyil. Baxın, bu gün nə qədər radikal, terrorçu var. Axı bunların hamısı inanmayanlardır. Onlar üzdə deyirlər ki, inanırlar, amma daxildə heç nəyə inanmırlar. Ona görə ki, insanları qırırlar. Bələləri Avropada da, İslam dünyasında da var. Onlarla nə etmək olar? Belə çıxır ki, Nitsşe "Allah öldü" deyəndə daha çox bunu nəzərdə tutub, yəni təhlükələr çoxala bilər, onun qarşısını necə almaq olar. Digər tərəfdən, insan nə qədər çox bilirsə, beynində o qədər də sual yaranır, o sualları özünə də, Mütləq varlığa da ünvanlayır. Ona görə də belə çıxır ki, Nitsşe öz dövrünü 100-200 il qabaqlayıb. Əsərlərinin birində deyir ki, məni başa düşənlər 200 ildən sonra dünyaya gələcəklər, indi məni başa düşməzlər. Elə də oldu. Onun ölümündən sonra Marksizm gücləndi, hamı maraqlardan danışmağa başladı və müəyyən mənada dəyərlərdən imtina edildi. Ona görə də onun bu sözü heç nəyə inanmayan, dəyərləri itirmiş insanlara aiddir. Burada da maraqlı sual yaranır, dəyərlərin böyük olması üçün insan mütləq inanmalıdır, yoxsa inanmayanda da mənəvi aspektdən böyük, zəngin ola bilər? Misal üçün, Lev Tolstoy ömrünün sonunda ateist oldu, halbuki bir vaxtlar öz dinini yaratmışdı. Bu, bir seçimdir. Belə çıxır ki, dinsiz, amma dərin insan olmaq üçün çox zəngin biliyə, elmə malik olmaq lazımdır. Bu, adi insan üçün çətindir.

> *Bəlkə də, keçmişdə, hansısa mənada, pak idik, təmiz yaradılırdıq. Müasir insan isə fərqlənir, sanki doğulan andan müəyyən biliklərə sahib olur. Həqiqətən də, bugünkü uşaqlar fərqlidir, keçmişdəki kimi deyillər.*

**- Müsahibələrinizin birində demisiniz ki, "Bir qisim hesab edir ki, fəlsəfənin vaxtı qurtarıb, o, elm deyil, gözəl mənzərə və yazılardır. Digərləri isə düşünür ki, fəlsəfə hələ də elm kimi qalır və inkişaf edir". Bu fikri açmağınızı rica edəcəyəm. Fəlsəfənin vaxtının bitdiyini düşünənlər nəyə əsaslanırlar? Bəlkə, düşünürlər ki, əsrlərdir var olan fəlsəfə çiyinlərinə düşən məsuliyyətin öhdəsindən gələ bilmir artıq? Yaxud başqa əsasları var?**

- Misal üçün, XX əsrdə yaşamış Mişel Fuko – mən onu filosof sayıram – "fəlsəfə" sözündən imtina etmişdi, özünü strukturalist adlandırırdı. 1984-cü ildə dünyasını dəyişib, əsərlərinin çoxu ilə nəinki tanışam, hətta onun barəsində yazılarım da var. Onun kimi bir çox filosof fəlsəfədən imtina edərək yeni elm tapmaq niyyətində olub. Amma o elmin özü də fəlsəfə olub, sadəcə olaraq, adını başqa qoyublar. Məsələn, Fuko ona strukturalizm, başqası sosiologiya deyib və s. Yəni, fəlsəfədən imtina edənlər yeni fəlsəfə yaratmaq istəyiblər. Ancaq fəlsəfədən tamamilə imtina edənlər də olub. Onlar hesab edirdilər ki, XX əsrdə fəlsəfə özünü ideologiya ilə bağlayıb, ideologiya isə çox böyük ziyan gətirib. Söhbət yalnız Marksçılıqdan getmir. Belə çıxır ki, fəlsəfə ideologiyanın günahlarını öz boynuna götürməli və özündən imtina etməlidir. Bu da yanlışdır, çünki fəlsəfə ideologiya ilə bağlı ola bilməz – fəlsəfə fəlsəfədir, ideologiya isə ideologiya. Bu mövzuda həm Azərbaycanda, həm də ölkə xaricində nəşr olunmuş məqalələrim, əsərlərim kifayət qədərdir. Sovet vaxtında kiçik də olsa, fəlsəfənin öz yeri var idi. İdeologiyaya isə daha çox yer verilirdi. Misal üçün, tanınmış filosof Merab Mamardaşvilini heç vaxt ideoloq adlandırmaq olmazdı, amma o, filosof idi. Bir sözlə, fəlsəfə ilə ideologiya arasında münasibətdən söhbət gedəndə bunların hər birinə ayrıca baxmaq lazımdır. Onların arasında fərqi görməyəndə isə ideologiya fəlsəfəni yox edir, tamamilə onun yerinə keçir. Sovet dövründə belə şeylər olurdu. Hesab edirəm ki, fəlsəfənin elmdə öz işi

davamı səh. 9

# İLHAM MƏMMƏDZADƏ: "QURANI TƏHLİL ETMƏK, SUALLAR VERMƏK, YENİ MƏNALAR AXTARMAQ LAZIMDIR"

*AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru İlham Məmmədzadənin "Cəmiyyət və Din" qəzetinə müsahibəsi.*

əvvəli səh. 8

var. Bu iş yuxarıda qeyd etdiyim sərhədlə bağlıdır. Həmin sərhəd bildiklərimiz ilə bilmədiklərimizin arasından keçir. Biliyi çoxaltmaq üçün fəlsəfə və məntiq lazımdır. Bu məsələ ondan irəli gəlir ki, biz şüurumuzu, suallarımızı yoxlamalıyıq: "varlıq nədir?", "şüur nədir?", "təcrübə nədir?" və s. Bu şeylərdən nəyisə bilirik, nəyisə yox. Biliyimizi çoxaltmaq istəyiriksə, məntiqi suallar verməliyik. Bəzən elə düşünürlər ki, sual dedikdə "fəlsəfə nədir?" başa düşülür. Ancaq davamında da suallar gəlir axı. Məsələn, "varlıq", "antrologiya nədir?", "həyat nədir?" və s. Bu sualları vermək və onların arasında əlaqəni görmək üçün məntiq lazımdır, fəlsəfəni və elmi bilmək lazımdır. Ancaq burada problem yaranır. Mənim sevimli suallarımdandır: "fəlsəfə tarixinin fəlsəfədən fərqi nədir?", "fəlsəfə tarixi biliklə bağlıdır, yoxsa yox?". Çalışmalıyıq ki, bu məsələlərdə suallar əmələ gəlsin və cavablar da məntiqli olsun. Elə fəlsəfi mükalimələr var ki, məntiqdən imtina edəndə müəyyən mənada fəlsəfəni itirir, boş danışığa çevrilir. Müasir dünyada bu problem hər yerdə var. Yazan, özünü filosof adlandıran çoxdur, amma həqiqi filosof azdır. Söhbət o şəxslərdən gedir ki, bizim bilmədiklərimizə cavab verə bilir, onu oxuyanda hansısa yeniliklər yaradırıq. Misal üçün, Nitsşe kimi. Onun kimilərin sayı getdikcə azalır. Fəlsəfənin çətin vəziyyətdə olduğunu deyəndə mən bunu nəzərdə tuturam. Keyfiyyətli filosof, keyfiyyətli bioloq, keyfiyyətli fiziklərin sayı azalıb. Vaxtilə Hegel deyirdi ki, fəlsəfədə iki qisim professorlar var. Birincilər dərs deyirlər, yenilik axtarmırlar, sual və cavab vermirlər. İkinci qisim professorlar isə həqiqi alim və filosoflardır – daim yenilik axtarışındadırlar, ortaya yeni suallar və cavablar qoya bilirlər – ancaq onların sayı azdır. Müasir dövrdə də belədir, professorların sayı çoxalır, filosofların sayı isə azalır. Bu, böyük problemdir. Yaxşı filosoflar lazımdır – həm Azərbaycana, həm də dünyaya. Digər tərəfdən, axı fəlsəfə həm də əxlaq, mənəviyyat və insanlıqla bağlıdır. Bu sahələrdə də suallar az deyil.

*Bu gün gənc nəsil elmə, fəlsəfəyə çox çətin gəlir. Filosof dedikdə heç kimin ağlına gənc deyil, müəyyən mənada, yaşlı, müdrik insan gəlir. Amma bu gün gənclər olmasa, sabah həmin müdrik, yaşlı filosoflar da olmayacaq.*

Məsələn, bu gün insan olmaq nə deməkdir? Elə çətin sualdır ki... Bu suala fəlsəfədən başqa heç bir elm cavab verə bilməz.

**- IX-XII əsrlər İslam aləminin qızıl dövrü adlandırılır. Məhz həmin dövrdə əl-Xarəzmi, ər-Razi, əl-Fərabi, İbn-Sina, əl-Biruni, Nizami, İbn Rüşd kimi alimlər yetişmişdi və onların ideyalarının Qərbdəki reformasiya hərəkatının təkanverici qüvvəsi olduğunu iddia edənlər az deyil. Bir növ, Şərq Qərbi yuxudan oyatdı. Ancaq sonra özü yuxuya getdi və deyəsən, hələ də ayıla bilməyib... Razısınız bu fikirlə?**

- Belə suala yüngül cavab vermək qeyri-mümkündür. Çətinlik nədədir? Bəli, dediyiniz dövr İslam dünyasının intibah dövrü idi, fəlsəfədə xeyli irəliləyişə nail olunmuşdu və bunda azərbaycanlı filosofların da rolu böyük olmuşdu. Sual yarana bilər ki, xristian dünyasına intibahı İslam dünyası gətirib, ya yox? Ola bilər. Ona görə "ola bilər" dedim ki, intibah elə bir reallıqdır, onu sənə gətirən olmur, sən hardansa bəhrələnə bilərsən, amma öz cavabını axtarmalısan. Xristian-Avropa dünyası da öz cavabını verdi. Xristian-Avropa intibahı İslam intibahı deyil, ancaq ondan bəhrələnib.

**- Bəli. Sanki Qərb dünyasında elm Kilsənin məngənəsində idi, sıxılırdı və Şərqin dediyimiz intibahından ilhamlanaraq ayağa dura bildi.**

- Avropaya intibahı din yox, dindən azad olmaq gətirmişdi. İqtisadiyyat, Aralıq dənizinin sahilində ticarət üçün əlverişli mühitin yaranması, Amerikanın kəşfi və s. Bunlar onu göstərir ki, Avropada intibah iqtisadiyyatın inkişafı, insanların sərbəstliyə qovuşması ilə başlayıb. Ancaq, bəli, İslam fəlsəfəsi onlara təsir etmişdi. "Ərəbdilli" Aristoteli Avropaya "qaytardılar". Amma burada başqa sual ortaya çıxır: bəs Aristoteli İslam dünyasına kim gətirmişdi? Qədim Yunanıstan – Bizans... Biz bunu unuduruq. Belə çıxır ki, həm İslam, həm Xristianlıq, həm də bütövlükdə dünya dinləri vəhdət təşkil edir. Onlar bir-birinə təsir edəndə - hətta müharibələrlə olsa belə - kimsə bəhrələnir, kimsə imkanlarını itirir. Bu, rəqabətdir, özü də çətin rəqabətdir. İstərdim ki, İslam dünyası inkişaf etsin, intibahını qaytarsın. Ancaq onu da başa düşürəm ki, bu yalnız vəhdət şəklində ola bilər.

**- Məsələ də elə budur. Xristian-Avropa dünyası İslam intibahından istifadə etdi, ancaq İslam dünyası xristian-Avropa dünyasının bu bəhrələnməsindən yararlanıb onun əldə etdiyindən daha yaxşısına nail ola bilmədi.**

- Xristian-Avropa dünyası, ilk növbədə, elmi dinin məngənəsindən çıxartdı, sonra iqtisadiyyatı inkişaf etdirdi. Kapitalizm meydana gəldi. Fikrimcə, həmin intibah dövrü olmasaydı, kapitalizm yaranmazdı. Digər tərəfdən, maarifçilik işi çox geniş vüsət aldı. Biz bəzən bunu unuduruq, ancaq Qərb intibahının əsas lokomotivlərindən biri maarifçilik hərəkatı idi. Sual yarana bilər ki, maarifçilik hərəkatı İslam dünyasına niyə o qədər inkişaf qazandıra bilmədi? Əslində, maarifçilik İslam dünyasında öz yerini tapmağa çalışırdı, ancaq tapa bilmədi. Məsələn, Azərbaycanda bu hərəkatın nəticəsi oldu, ancaq başqa yerlərdə alınmadı.

**- Ancaq bizdə də maarifçilik işi gec başlamadımı? XIX əsrdə Həsən bəy Zərdabi və Mirzə Fətəli Axundovla başlamışdıq...**

- Unutmayaq ki, Azərbaycan Xalq Cümhuriyyəti də elə həmin hərəkatın bəhrəsi idi. Bilirsiniz, Avropa maarifçilikdə zəif tərəflərini gördü. Bir filosofun kitabında çox maraqlı ifadə var idi: "avtoritar maarifçilik". Bu da o deməkdir ki, maarifçiliyin başqa forması da var. Avtoritar maarifçilik müəllim-tələbə münasibətlərində müəllimin böyük təsirinin olmasıdır. Biz sovet dövründə yalnız avtoritar maarifçilik gördük. Avropa isə öz maarifçiliyini yenidən tənqid süzgəcindən keçirtdi, ondan imtina etmədi, yeni maarifçilik yolları axtardı. Belə başa düşülməsin ki, bu gün Qərb maarifçiliyi idealdır və ondan bəhrələnmək istəyirik. Əksinə, onun bu gün də qüsurları var. Məsələn, ABŞ-ın imperiya düşüncəsi. O, özünü böyük və hamıya yenilik gətirən güc hesab edir. Bu, avtoritar maarifçilik yoludur və qətiyyən qəbul edilə bilməz. Baxmayaraq ki, amerikalı alimlər öz əsərlərində avtoritar maarifçiliyi tənqid edirlər. Mən bütün əsərlərimdə qeyd edirəm, biz maarifçilik işini davam etdirməli, yeni maarifçilik yolları axtarmalıyıq. Bəli, bizim XIX-XX əsrlərdə böyük maarifçilərimiz olub, ancaq bugünkü maarifçilik başqa cür olmalıdır. O, hansısa mənada insanı azad ruhlu, sərbəst ruhlu etməlidir. Necə deyərlər...

**- Düşünən ruhlu etməlidir...**

- Bəli, düşünən (gülümsəyir). Bunu yaxşı dediniz. Bir kitabımda yazmışdım ki, müasirlik – düşünən müasirlikdir. Siz də bunu dediniz. Bu o deməkdir ki, hamımız başa düşürük ki, düşünmək lazımdır, həm də çox lazımdır...

**- Doktorluq dissertasiyanızın mövzusu "Əxlaq və siyasətin nisbətinin etik təhlili"dir. Bugünkü dünya siyasətinə baxsaq, tabloda uyğunsuz çox "rəng" görərik. Məsələn, "səhvən" atılan güllələr, bombardmanlar, "antiterror əməliyyatları" nəticəsində minlərlə dinc insan ölür. Qarşılığında isə sadəcə bir "üzr istəyirik", vəssalam. Bütün bunlara baxıb o nəticəyə gələ bilərikmi ki, dünya siyasətində etika qorunmur?**

- Yaxşı sualdır. Hər bir dünyəvi siyasətçi, desə də, deməsə də, etikadan müəyyən danışıq aparır. Bu danışıq beynəlxalq hüquq adlanır. Belə çıxır ki, siyasətdə etikanın rolunu beynəlxalq münasibətlər və beynəlxalq hüquq oynayır. Amma bu, yenə də bütün suallara cavab vermir. Məsələn, beynəlxalq münasibətlərdə və beynəlxalq hüquqda nə əsasdır: qayda-qanun, yoxsa dövlətin maraqları? Bu çox çətin sualdır və həm etik, həm də siyasi problemdir. Bəzi siyasətçilər deyirlər ki, mənim üçün dövlətimin maraqları önəmlidir. Elə siyasətçi də var ki, məsələn, ABŞ-ın sabiq Prezidenti Karter kimi, etikanı hər şeydən üstün tutur. Təkcə siyasətçilər yox, adi insanlar da "maraq, yoxsa əxlaq?" dilemması qarşısında qalırlar. Çox vaxt ailəmizin, özümüzün maraqlarımızı üstün görüb əxlaqı kənara atırıq. Nikkolo Makkiavelli deyirdi ki, siyasət əxlaqdan kənardadır. Bu, yüngül cavabdır. Bu suala daim cavab axtarmaq lazımdır.

**- Məgər haqlı deyil?**

- Hamı belə hesab edə bilər. Amma elə adamlar var ki, siyasətçi olmasalar da, sözləri böyükdür, siyasətdə qəbul olunur. Məsələn, Mohandas Qandi. Bu gün də onun haqqında danışılanda hamı deyir ki, əxlaqlı siyasətin tərəfdarı olub. Onun əsas ideyası o idi ki, heç kimə güc tətbiq etmək olmaz. Bu gün də hamı başa düşür ki, güc tətbiq etmək olmaz, ancaq siyasət gücsüz olmur. Onda sual yaranır: əxlaq, etika haradadır? Bir anlıq düşünün ki, dünya siyasətindən etika tamamilə çıxarıldı - nə baş verər? Bəli, dediyiniz kimi, bu gün dünyada çox adam siyasətin "qurbanı"na çevrilir. Ancaq bütövlükdə götürsək, insanlar daha yaxşı yaşayırlar, əvvəlki dövrlərdəki kimi aclıq dünyanı ağuşuna almayıb, insan ömrü uzanıb, uşaq ölümləri azalıb. Bunlar nəyin nəticəsidir? Hansısa mənada pis, amma əxlaq çərçivəsindəki siyasətin. İkinci Dünya müharibəsi 50 milyon insanın həyatına son qoydu. İndi o cür müharibə ola bilməz. Bu gün ən uzaq ölkədə təyyarə vurulanda 160-170 nəfər ölür və hamı buna təəssüf edir. Bu o deməkdir ki, bu gün insan həyatı daha dəyərlidir. Yüz il bundan əvvəl belə deyildi, müharibəni elə bəsit şeylərə görə elan edirdilər ki... Birinci Dünya müharibəsini necə başladılar? II Nikolay, V Georq, Vilhelm - bir-birinə qardaş kimi yaxın idilər. Amma bir-birinə müharibə elan etmişdilər. Bu o deməkdir ki, insan həyatı onlar üçün əhəmiyyətli deyildi, insana toz kimi baxırdılar. Bu gün hansısa dövlətə qarşı müharibə başlatmaq çox çətindir, insan ölümündən qorxurlar, istəyirlər ki, o yaşasın.

**- Azərbaycanda fəlsəfə məktəbi varmı? Varsa, o məktəb hansı fəlsəfi xəttə yaxındır, yaxud hansı fəlsəfi xətti davam etdirir?**

- Var və o, Avropanın fəlsəfə məktəblərindən bir qədər fərqlənir. Biz onu Avrasiya fəlsəfi məktəbi adlandıra bilərik.

*Həm İslam, həm Xristianlıq, həm də bütövlükdə dünya dinləri vəhdət təşkil edir. Onlar bir-birinə təsir edəndə - hətta müharibələrlə olsa belə - kimsə bəhrələnir, kimsə imkanlarını itirir. Bu, rəqabətdir, özü də çətin rəqabətdir.*

Rus və türk fəlsəfi məktəbləri ilə yaxınlığımız var, amma onlardan da fərqlənirik. Axundov və Zərdabi kimi maarifçilərimizin fəlsəfi ideyaları var idi. Sovet dövründə də onların maarifçiliyinin əks-sədası görünürdü. Məsələn, Aleksandr Osipoviç Makovelski, Heydər Hüseynov, Ziyəddin Göyüşov və başqaları məhz həmin mütəfəkkirlərimizin ideyalarını davam etdirirdilər. Bu gün isə bizim fəlsəfə məktəbimiz, Fəlsəfə tarixi şöbəmiz həmin bağlılığı saxlayıb davam etdirməkdədir. Müasir dövr alimlərimizin adlarını çəkərkən, şübhəsiz, ilk növbədə, akademik Ramiz Mehdiyevi xüsusi vurğulamalıyıq. Həm Sovet Azərbaycanı fəlsəfəsində, həm post-sovet, həm də müasir fəlsəfədə yeri böyükdür. Hansısa mənada biz hamımız onun tələbələriyik. Fəlsəfə tarixi və elmin fəlsəfəsi onun əsərlərində sıx bağlı olub. Bu da bizim fəlsəfi məktəbin əsas cəhətlərindəndir. Bu xətti davam etdirən alimlərimiz, filosoflarımız çox deyil, amma az da deyil. Onların arasında gənclər də var. Bilirsiniz ki, bu gün gənc nəsil elmə, fəlsəfəyə çox çətin gəlir. Filosof dedikdə heç kimin ağlına gənc deyil, müəyyən mənada, yaşlı, müdrik insan gəlir. Amma bu gün gənclər olmasa, sabah həmin müdrik, yaşlı filosoflar da olmayacaq.

Müsahibəni hazırladılar:
**Saleh Arslan**
**Ramil Hikmət**



# İŞIĞA TABE OLAN QARANLIQ

2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş terror aktı bir anda bütün dünyanı sarsıtdı və dünyanın siyasi xəritəsində dəyişikliklərə rəvac verdi. Ancaq diqqəti çəkən əsas məsələ Qərb dairələrinin baş verən hadisəyə görə icraçıları deyil, onların etiqad etdikləri dini – İslamı hədəfə alınması idi. Təəssüf ki, xüsusilə ABŞ mediasının başlatdığı "İslamı günahkar göstərmək kampaniyası" bütün dünyada islamofobiya meyillərinin yaranmasına və artmasına təkan verdi. Ancaq digər tərəfdən, bu dəfə də təsir əks təsirə bərabər oldu - İslama maraq göstərənlərin sayında da artım müşahidə edilməyə başladı. 22 il keşiş işləyən, sonradan İslamı qəbul edən braziliyalı hacı İsmayıl Santos yazır: "Məni ən çox sevindirən hadisə bir insanın kəlmeyi-şəhadət gətirərək müsəlman olmasıdır. İslama, xüsusilə, 11 sentyabr hadisələrindən sonra Latın Amerikasında böyük maraq göstərilir".

Səmavi dinlərin sonuncusu olan İslamın kamilliyi, tolerantlıq prinsipləri insanların onu rahatlıqla qəbul edib inanmasına səbəb olmuşdur. Bu din insan hüquqlarının qorunmasını, irqindən, dinindən, milli mənsubiyyətindən, sosial vəziyyətindən asılı olmayaraq, hər kəsə ədalətli münasibət göstərməyi və insansevərliyi tövsiyə edir.

Ümumiyyətlə, İslamın özündən əvvəlki səmavi dinlərin bəzi cəhətləri ilə ortaq olan aydın fəlsəfəsi sayəsində digər din mənsublarının ona iman gətirməsinə dünya təcrübəsində dəfələrlə rast gəlinmişdir. San-Paulodakı Medde kilsəsinin keşişi olmuş hacı İsmayıl Santos öz xatirələrində bu məsələyə toxunur: "Bir keşiş dostum yanıma gələrək qızıyla bağlı məndən kömək istəmişdi. Qızı Xristianlıqdan imtina edərək İslamı qəbul etmişdi. Bu vəziyyətdən çox narahat olan dostum qızı ilə danışmağımı və onu fikrindən döndərməyimi, İslamdan uzaqlaşdırmağımı xahiş etdi. Mən dostumun istəyi ilə qızını kilsəyə dəvət etdim və onunla İslam haqqında müzakirə etməyə başladıq. Qız İslamı yeni qəbul etsə də, imanı güclü idi. Mən onu fikrindən daşındıra bilmədim, amma o, məni müsəlmanların toplaşdığı məkana getməyə razı saldı. İki gündən sonra San-Paulodakı İslam dəvət mərkəzinə getdim. İslamın Tövhid anlayışından təsirləndim. Onun Allahın dini olduğuna bütün qəlbimlə inandım və müsəlman olmaq qərarına gəldim".

Eyni taleyi yaşamış amerikalı Yusuf Estes də bu dinin yayılmasında könüllü iştirak edənlərdəndir. Hazırda təqaüddə olan Estes uzun müddət Vaşinqton həbsxanasında müsəlman vaizi kimi çalışmışdır.

İslamın yayılma dalğası nəinki Latın Amerikasını, bütün dünyanı əhatə etməkdədir. Dünyanın bir çox universitetində İslamın elmi-nəzəri əsaslarını öyrənməyə çalışırlar. Qurani-Kərimin özü də ayrıca elm kimi araşdırılır.

Bununla belə, bu gün İslam dini və onun mahiyyəti mübahisələr doğurmaqdadır. Müasir dövrdə dövlətlərarası siyasi, iqtisadi gərginliyin artması, kiçik problemlərin qabardılıb münaqişəyə çevrilməsi dünyada müharibə ocaqlarının sayının çoxalmasına səbəb olmuşdur. Bu da, öz növbəsində, kütləvi insan ölümü, hüquq və azadlıqların pozulması, iqlim dəyişiklikləri ilə nəticələnmişdir. Belə olan halda, bəşəriyyətin ən çox ehtiyac duyduğu məfhumlar qarşılıqlı anlayış, hörmət və sevgidir. Özündən əvvəlki səmavi dinlərə hörmətlə yanaşmağı tövsiyə edən İslam isə tolerantlıq, dinlər və sivilizasiyalar arası dialoq, dünyada ədalətli bölgü prinsipləri, mədəni müxtəliflik, birgəyaşayış, multikulturalizm, beynəlxalq dostluq və əməkdaşlıq prinsiplərinin carçısıdır. Unutmaq olmaz ki, işığı boğmaq istəyən qaranlığın özü işığa qərq olar...

**Sona HƏMİDOVA**

## "XXI ƏSRDƏ "APOKALİPSİSİN DÖRD ATLISI" DÜNYA ÜÇÜN TƏHLÜKƏDİR"



"TASS" agentliyi xəbər verir ki, bu sözləri BMT-nin Baş katibi Antonio Qutyerreş rəhbərlik etdiyi qurumun Baş Assambleyasında deyib.

BMT rəsmisinin sözlərinə görə, əsas problem geosiyasi gərginlik, iqlim böhranı, qlobal inamsızlıq və texnoloji tərəqqidən sui-istifadə edilməsidir. O deyib: "Dünyamız dönüş nöqtəsinə yaxınlaşır. "Dörd atlı" görürəm. İlk atlı ən yüksək geosiyasi gərginlik məkanında görünür".

A.Qutyerreş vurğulayıb ki, dünyada yaşanan gərginlik səbəbindən, eləcə də terror aktlarında getdikcə daha çox insan ölür, bütün bəşəriyyət üçün nüvə təhlükəsi genişlənir və bu təhlükə artmaqda davam edir. İkinci Dünya müharibəsindən bu yana getdikcə daha çox insan doğma yerlərindən qaçmağa məcbur olur.

O bildirib ki, "Apokalipsisin ikinci atlısı" isə iqlim dəyişikliyidir. Bütün dünyada orta temperatur rekord qırmaqda davam edir və yaxın gələcəkdə milyonlarla canlı növü yox olmaq təhlükəsi ilə üzləşə bilər.

A.Qutyerreş "üçüncü atlı"nı dünyada insanların bir-birinə inamsızlığının artması kimi dəyərləndirib. Onun fikrincə, "Apokalipsisin dördüncü atlısı" isə şüursuz texnoloji tərəqqi və onun törətdiyi fəsadlardır.

Qeyd edək ki, İncildə bəhs edilən və qiyamətdən əvvəl (Armageddondan qabaq) meydana çıxacaqları söylənilən" Apokalipsisin atlıları" simvolik məna daşıyır. Dörd atlı hərəsi bir fəlakəti göstərir. Ağ atlı (əlində yay və tac) müqəddəsliyi, qırmızı atlı (qılınc) qan rəngini, müharibəni, qara atlı (tərəzi) qıtlıq, aclıq və yoxsulluğu, solğun atlı isə xəstəliyi və ölümü simvolizə edir.

## ABŞ ORDUSUNDA İLK DƏFƏ MÜSƏLMAN QADIN RUHANİ VƏZİFƏSİNƏ TƏYİN OLUNUB



"Religionnews"-un məlumatına görə, ABŞ ordusunda ilk dəfə müsəlman qadın ruhani vəzifəsinə təyin olunub və ona Çikaqodakı Katolik İlahiyyat Birliyində təşkil olunan mərasimdə kiçik leytenant rütbəsi verilib.

Ötən ilin dekabr ayının sonlarında ABŞ Hərbi Hava Qüvvələrində (HHQ) müsəlman ruhani vəzifəsinə namizədliyi təsdiqlənən Saleha Cabin təkcə HHQ-də deyil, ümumilikdə ölkə ordusunda bu vəzifəyə yiyələnən ilk qadındır. Hindistanda doğulub boya-başa çatan Cabin Alabama ştatının Montqomeri şəhərində yerləşən Maksvell aviabazasında hərbi hazırlıq keçəcək. O, 2009-cu ildə Çikaqoda Yevangelist xristian kilsəsinin nəzdindəki Nort-Park Universitetini bitirib. 2016-2018-ci illərdə ABŞ ordusunun ehtiyat hissəsində müsəlman ruhanilər olmadığından, qeyri-rəsmi mənəvi rəhbər kimi xidmət göstərib.

## İNGİLTƏRƏ KİLSƏSİ KEŞİŞLƏRİN TƏHSİLİNƏ SƏRMAYƏ QOYMAĞA HAZIRLAŞIR

"Christiantoday"-in verdiyi məlumata görə, Anqlikan Kilsəsi keşişlərin elmi biliklərə yiyələnməsi üçün sərmayə ayırmaq qərarına gəlib. Kilsənin fikrincə, pastorlar, xüsusilə elmlə imanın kəsişdiyi sahələrdə daha dərin elmi biliklər əldə etməlidirlər.

Anqlikan Kilsəsində keşiş vəzifəsinə namizədlərə elmlə inancın kəsişdiyi mühüm sahələrdə müasir tələblərə uyğun təhsil ala bilmələri üçün Kilsə tərəfindən maddi yardım göstəriləcək. Bu məqsədlə Kilsə "Elm Əsrində Xristian Liderliyinin Təminatı" (Equipping Christian Leadership in an Age of Science, ECLAS) layihəsi çərçivəsində həyata keçiriləcək yeni proqrama bir milyon funt-sterlinq ayırıb. Bu layihənin tərkib hissəsi olaraq süni intellektdən tutmuş Kilsə və cəmiyyətdə elmlə imanın birgə mövcudluğu və inkişafının fəlsəfi prinsiplərinə qədər bir çox müasir elmi məsələni rahat qavraya bilmələri üçün ruhani vəzifəsinə hazırlaşanların təlim keçməsinə xüsusi qrantlar ayrılacaq. Həmçinin Anqlikan Kilsəsi kilsə rəhbərlərini müxtəlif sahələrdə ən son elmi nailiyyətlərlə tanış etmək üçün elmi-mənəvi konfranslar, seminar və iclaslar keçirəcək.

# DİNİ DÖZÜMLÜLÜK – MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN TƏRKİB HİSSƏSİ

Xalqların həyat tərzinin formalaşması, tarix səhnəsində özünəməxsus yer tutması onların milli-mənəvi dəyərləri ilə sıx bağlıdır. Bu baxımdan xalqımız öz milli-mənəvi dəyərlərinə tarixən sadiq qalmış, onu qorumuş, yaşatmış və gələcək nəsillərə ötürmüşdür. Həmin dəyərlər arasında birgəyaşayış, qarşılıqlı hörmət və dözümlülük prinsipləri xüsusi yer tutur. Bunun nəticəsidir ki, ölkəmizdə heç zaman dini zəmində münaqişə baş verməmiş, xalqımız "yaradılanı Yaradandan ötrü sev" prinsipini özünə meyar seçmişdir. Eyni zamanda, Azərbaycanın yerləşdiyi coğrafi mövqe, əhalisinin etnik tərkibi bu ərazidə müxtəlif dinlərin nümayəndələrinin tarix boyu birgə yanaşı yaşamasına şərait yaratmışdır və bu ənənə günümüzdə də yüksək səviyyədə davam edir. Təbii ki, burada dövlətin oynadığı rol da önəmlidir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması, xüsusilə də Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkədə olan tarixi tolerantlıq ənənələrinin qorunması və inkişafı üçün real şərait yaratdı. Həmçinin Azərbaycan dövləti ölkədə mövcud olan çoxmillətliliyi, çoxkonfessiyalılığı qoruması öz siyasətinin tərkib hissəsinə çevirdi və onların hüquqlarının qorunması istiqamətində mühüm addımlar atdı.

Heç kəsə sirr deyil ki, ölkəmizdə milli-mənəvi irsin qorunub yaşadılması, maddi mədəniyyət abidələrinin bərpa və inşası, dini-əxlaqi dəyərlərimizin qorunması kimi tədbirlərin dövlət siyasəti səviyyəsinə yüksəldilməsinin təməli məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu Öndərin uzaqgörən və müdrik siyasəti sayəsində müstəqil dövlətimizin əzəmətli tarixi keçmişinin yaşadıcısı olan abidələrin, o cümlədən dini ziyarətgahların bərpa və inşa edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı müstəqilliyini yeni elan etmiş gənc dövlətin iqtisadi və siyasi bünövrəsini qurmaqla yanaşı, xalqın milli özünüdərkin, Azərbaycançılıq ideologiyasının daha yüksək dərəcədə formalaşmasına, dövlətçilik ənənələrinin yüksələn xətt üzrə inkişafına böyük zəmin hazırladı. Hazırda xalqın milli-mənəvi və dini dəyərlərinin qorunmasında, dini ibadət ocaqlarının təmir və inşasında o, cümlədən Azərbaycan Respublikasında irqindən, milliyyətindən və dinindən asılı olmayaraq hər kəsin dini etiqad azadlığının təmin olunmasında Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezidenti cənab İlham Əliyevin əvəzsiz xidmətləri danılmazdır. Bir faktı qeyd etmək kifayətdir ki, əgər Sovetlər Birliyi dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-dən artıqdır. Təkcə son 10 il ərzində ölkədə 140-dan çox məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb, o cümlədən dövlət vəsaiti hesabına onlarla məscid tikilib, yaxud əsaslı bərpa olunub. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə məscidində, Əjdərbəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində bərpa və yenidənqurma işləri aparılıb. Gəncə şəhər İmamzadə ziyarətgahı yenidən bərpa edilərək xalqın istifadəsinə verilib. Dövlət başçısının tapşırığı ilə Binəqədi rayonunda inşa edilən və ölkənin ən böyük məscidi olan Heydər məscidinin 26 dekabr 2014-cü ildə açılışı olub.

Bir məsələni də vurğulamalıyıq ki, xalqın milli-mənəvi dəyərlərinin və adət ənənələrinin yaşadılması, düzgün təbliğ olunması, gənclərin milli ruhda tərbiyə edilməsi, xüsusilə təhsilli və intellektli gəncliyin formalaşması radikalizm bəlasının qarşısının alınmasında ən mühüm hədəflərdən biridir. Bu baxımdan milli-mənəvi dəyərlərimizi olduğu kimi təbliğ etmək və bu sahədə maarifləndirmənin məqsədyönlü aparılması olduqca əhəmiyyətlidir. Belə ki, maarifləndirmə gənclərin milli-dini dəyərlərdən uzaqlaşmasının, onların milli dəyərlərimizə əks davranış və mövqe tutmasının, xüsusilə, yad təsirlərin qurduğu tələyə düşməsinin qarşısının alınması baxımından vacibdir. Dini dəyərlərimizə diqqət yetirsək, bu dəyərlərin əksəriyyəti xalqımızın milli dəyərlərində öz əksini tarixən tapdığını və xalqımızın hələ İslam dinini qəbul etməzdən əvvəl də bu dəyərləri öz şərəfli tarixində yaşatdığını görərik.

Hər bir Azərbaycan vətəndaşı, vətən daşının müqəddəsliyini dərk edərək torpaq, bayraq, himn, dövlətçilik kimi dəyərlərə sadiq qalmalı, sadalanan bütün bu müqəddəs dəyərlərin toxunulmaz olması üçün səy göstərməlidir. Bizim ən böyük milli dəyərimiz müstəqilliyimizdir. Müstəqilliyimizin qorunması, dövlətçiliyimizin inkişafı, Azərbaycançılıq ideologiyasının təbliğ olunması sahəsində hər birimizin üzərinə şərəfli xidmət düşür.

**Vüsal HÜSEYNLİ,**
DQİDK-nın Gəncə bölgəsi üzrə
şöbəsinin əməkdaşı

## VATİKAN KİTABXANASININ MATERİALLARINI ONLAYN ƏLDƏ ETMƏK MÜMKÜN OLACAQ



Vatikan Apostol Kitabxanası 1451-ci ildə təsis edilib. Bu gün orada təxminən 1.600.000 nəşr, 150.000 əlyazma, 85.000 inkunabula (kitab çapının başlanğıcından 1501-ci il 1 yanvar tarixinə qədər Avropada işıq üzü görən kitablar), 100.000-dən çox qravür və coğrafi xəritə, 300.000 sikkə və medal qorunub saxlanılır.

Təxminən on il əvvəl kitabxananın onlayn kataloqunun yaradılması prosesinə başlanılıb. 2020-ci ilin əvvəllərindən isə artıq materialların bir çoxuna xüsusi yaradılmış www.digi.vatlib.it saytında onlayn baxmaq mümkündür. Əldə olan materiallar arasında qədim Suriya və yunan əlyazmaları, həmçinin orta əsrlərdə Yaponiyada və Kolumbdan əvvəlki Amerikada yaradılan ən nadir rəsm nümunələri var. Rəqəmsal kolleksiya daim yenilənməkdədir.

## LİVANIN XRİSTİAN DİNİ LİDERLƏRİ MÜHARİBƏ ƏLEYHİNƏ BƏYANATLA ÇIXIŞ EDİBLƏR



"FİDES" informasiya agentliyinin verdiyi xəbərə görə, Livanın maronit kilsəsinin bəyannaməsində deyilir ki, siyasətçilər ölkədə milli birliyin gücləndirilməsi və onun bütün regionda duyulan yeni müharibə dalğasından qorunması üçün əllərindən gələni etməlidirlər.

Patriarx Behara Butros Rainin rəhbərliyi ilə keçirilən ənənəvi aylıq toplantıda Maronit Katolik Kilsəsinin yepiskopları iranlı general Qasim Süleymaninin Bağdadda qətlə yetirilməsindən sonra Yaxın Şərqdə baş qaldıran müharibə qığılcımlarından narahatlıqlarını dilə gətiriblər. Buna görə də onlar dünya ictimaiyyətini və dövlətlərin rəhbərlərini artıq neçə onilliklərdir əzablı qarşıdurmalara və qeyri-sabitliyə şahid olan Yaxın Şərqdə iğtişaşların qızışmasına biganə qalmamağa səsləyiblər.

## POLŞA KATOLİK KİLSƏSİ "İSLAM GÜNÜ"NÜ QEYD EDİB




Polşa Katolik Kilsəsi 2020-ci il 26 yanvar tarixində "İslam Günü"nü qeyd edib. "SIR" informasiya agentliyinin məlumatına görə, aksiya İslam barəsindəki qərəzli mövqeyi aradan qaldırmaq və müsəlmanların əsl simasını göstərmək məqsədi daşıyıb.

Krakov Arxiyepiskopluğu Dialoq Şurasının üzvü, uzun illərdir İslamla Xristianlıq arasında dialoq yaradılması sahəsində fəaliyyət göstərən Karol Vilçinskinin sözlərinə görə, İslam Polşa katoliklərini narahat edən məsələlərdən biridir. "Çox təəssüf ki, polyakların əksəriyyəti müsəlmanlar barəsində yayılan saxta xəbərlərə inanır. Hətta bəzi keşişlər müsəlmanlar haqqında elə danışırlar ki, bu, insanları qorxudur".

Polşa Katolikləri və Müsəlmanları Şurasının həmsədri, şiə imamı Rafal Berger də vurğulayıb ki, kütləvi informasiya vasitələri Polşada katoliklərlə müsəlmanlar arasında dialoq üçün ictimai dəstək almağa məhdudiyyət yaradır. Bununla belə, "İslam Günü"nün qarşısına qoyduğu məqsəd, irəli sürdüyü ideyalar getdikcə daha çox tərəfdar qazanır.

## VATİKAN TARİXİNDƏ İLK



Roma Papası I Fransisk italyan xanım hüquqşünas Françeska Di Covannini Vatikanın Dövlət Katibliyində nüfuzlu vəzifəyə təyin edib. "AP" agentliyinin verdiyi xəbərə görə, bu, ölkə tarixində ilk belə hadisədir.

Məlumata görə, 66 yaşlı Covanni Müqəddəs Taxt-Tacda dövlət katibinin müavini vəzifəsinə təyin edilib. 27 illik iş təcrübəsi olan vəkil Vatikanın mühüm bürosunda - daxili bürokratik işlərlə və digər ölkələrlə diplomatik münasibətlər ilə məşğul olan dövlət katibliyində rəhbər mövqe əldə edən ilk qadın olub.

O, Vatikanın BMT və digər hökumətlərarası təşkilatlarla münasibətləri ilə məşğul olacaq.

# BİLİRSİNİZMİ?

**1 fevral** – Ümumdünya Konfessiyalararası Harmonik Münasibətlər Həftəsidir. Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 2010-cu il oktyabrın 20-də baş tutan sessiyasında hər il fevral ayının ilk həftəsinin bütün dinlər, etiqadlar arasında harmonik münasibətlər həftəsi elan edilməsi barədə qətnamə qəbul olunub. İlk belə həftə 2011-ci il 1-7 fevral tarixlərində keçirilib. Qətnamədə vurğulanır ki, bütün dinlərin, inancların təbliğatçılarının mənəvi vəzifəsi insanları sülhə, dözümlülüyə və qarşılıqlı anlaşmaya təşviq etməkdir. BMT bütün dövlətləri bu həftə ərzində konfessiyalararası harmoniya və xoş niyyətin yayılmasına könüllü dəstək olmağa çağırır.

**2 fevral** – Azərbaycanda Gənclər Günüdür. Bu gün 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə təsdiq olunub. Bu, Ümummilli Liderin gəncliyə göstərdiyi diqqət və qayğının nümunələrindəndir. Prezident İlham Əliyev də Ümummilli Liderin gənclər siyasətinə sadiq qalaraq gəncləri aparıcı qüvvəyə çevirmək, onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, ölkədə könüllülük hərəkatını inkişaf etdirmək və s. məqsədlərlə müxtəlif Dövlət Proqramlarını təsdiqləyib.

Qeyd edək ki, Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda qeyd olunub.

**2 fevral** – Rəbbin Təqdimatı Günüdür. Katolik, pravoslav və bəzi protestant məzhəblərində qeyd olunan xristian bayramıdır. Bayram xristianlar üçün əlamətdar bir hadisə olan İsa Məsihin Şimeon adlı saleh və mömin şəxslə görüşü münasibətilə qeyd edilir. Müqəddəs Kitabda deyilir ki, Müqəddəs Ruh Şimeona əvvəlcədən açıqlamışdı ki, o, Rəbbin Məsihini görməyincə ölməyəcək. Xristianlığa görə, bu görüş valideynləri tərəfindən körpə Məsihin doğumunun 40-cı və sünnətinin 32-ci günündə Yerusəlimdəki məbədə gətirildiyi vaxt baş tutmuşdur. Ona görə də Katolik Kilsəsi bu bayramı fevralın 2-si, Pravoslav Kilsəsi isə 15-i qeyd edir.

**3 fevral** – Yaponiyada Setsubun festivalı keçirilir. “Setsubun” termini bir mövsümün digəri ilə əvəzlənməsi mənasını daşıyır. Ənənəvi olaraq, Yaponiyada fevralın 3-dən 4-nə keçən gecə setsubun adlanır və ay təqviminə görə, yazın başlanğıc günü deməkdir. Setsubun Yaponiyanın ən qədim və maraqlı ənənələrindən biridir. Bayram günü bütün bədbəxtlikləri uzaqlaşdırmaq, evə xoşbəxtlik, firavanlıq və uğur gətirmək üçün mame-maki ayini keçirilir. Mame-maki “Pis ruh evdən uzaqlaş! Xoşbəxtlik evə gəl!” sözlərinin müşayiəti ilə quru soya dənələrinin səpilməsi mərasimidir. Pis ruhları qovmaq mərasimi bütün məbədlərdə açıq şəkildə həyata keçirilir və çox sayda tamaşaçı toplayır.

**4 fevral** – Ümumdünya Xərçənglə Mübarizə Günüdür. Xərçəngə qarşı Beynəlxalq Mübarizə Birliyinin təşəbbüsü ilə 2005-ci ildən başlayaraq qeyd edilən günün məqsədi ictimaiyyətin diqqətini bu qlobal problemə cəlb etmək, onkoloji xəstəliklərin nə dərəcədə təhlükəli olduğunu və geniş yayıldığını xatırlatmaqdır.

**4 fevral** – 2004-cü ilin bu günü amerikalı tələbə Mark Zukerberq Harvard Universitetinin yataqxanasında yeni, hələlik az tanınan bir layihəyə - “Facebook” sosial şəbəkəsinə start verdi. Layihənin həyata keçirilməsində Zukerberqə dostları kömək etdi. Tezliklə şəbəkədə ilk hesablar yarandı və bir müddət sonra resurs Harvard tələbələri üçün aparıcı ünsiyyət vasitəsinə çevrildi. İstifadəçilər arasında böyük populyarlıq qazanan “Facebook” hazırda dünyada ən böyük beynəlxalq sosial şəbəkədir.

**10 fevral** – Bar Verən Ağacların Yeni İlidir (Tu bi-Şvat). Yəhudi təqviminə görə, tu bi-şvat şvat ayının 15-ci günüdür. Adətən həmin gün yağışlar mövsümü başa çatır və təbiət yenidən canlanır. Tu bi-şvat bir ilin məhsulunu digərinin məhsulundan ayırmaq üçün təsis olunmuşdur. Belə ki, Tövratda bildirildiyinə görə, qədim İsraildə hər il meyvə məhsulunun onda bir hissəsi məbəddə xidmət edən və torpağa sahib olmayan kahinlər və levililər, onda bir hissəsi isə yoxsullar üçün ayrılırdı. Bu adət hər il təkrarlandığı üçün bir ilin məhsulunun onda bir hissəsinin digər ilin onda bir hissəsi hesabına ödənilməsi qadağan edilmişdi. Bu günlə bağlı özünəməxsus ənənələr formalaşmışdır. XIX əsrin sonlarında tu bi-şvat günü ağac əkmək ənənəsi ortaya çıxmışdır.

**11 fevral** – Ümumdünya Xəstələr Günüdür. 1992-ci il mayın 13-də Roma Papası II İohann Pavelin təşəbbüsü ilə təsis edilib. 1991-ci ildə Papaya Parkinson xəstəliyi diaqnozu qoyulandan sonra Xəstələr Gününün qeyd edilməsi təşəbbüsünü irəli sürüb. O, özünün bu barədəki xüsusi müraciətində bildirib ki, Ümumdünya Xəstələr Gününün hər il qeyd edilməsinin əsas məqsədi xəstələrin ağrı və iztirablarını yüngülləşdirməyə, ictimaiyyətin diqqətini onlara göstərilən xidmətin səviyyəsini yaxşılaşdırmağa yönəltməkdir.

**11 fevral** – Beynəlxalq Qadın və Qızların Elmdə İştirakı Günüdür. BMT Baş Assambleyasının 2015-ci il dekabrın 22-də qəbul etdiyi qətnamə ilə elan olunub. BMT-nin hesabatlarında qeyd olunur ki, elm və gender bərabərliyi təşkilatın 2030-cu ilədək dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bəşəriyyət son 15 ildə bu sahədə böyük nailiyyətlər əldə etsə də, qızlar və qadınlar hələ də təhsil almaqda əngəllərlə qarşılaşırlar.

**11 fevral** – 1929-cu ildə İtaliya dövləti ilə Müqəddəs Taxt-Tac arasında bağlanan Lateran sazişinə əsasən Vatikan suveren dövlət olmuşdur. Beynəlxalq hüquqda Vatikan yalnız Katolik Kilsəsinin əsas inzibati orqanlarından birinin - Müqəddəs Taxt-Tacın yerləşdiyi ərazidir.

**12 fevral** – Beynəlxalq Elm və Humanizm Günü və ya Darvin Günüdür. 1990-cı illərdə ABŞ universitetlərində ingilis təbiətşünası Çarlz Darvinə həsr olunmuş bayram keçirmək barədə yaranan ideyalar 2001-ci ildə reallaşmış və sonra bütün dünyada populyarlaşmışdır. Təbii seleksiya, təkamül və insanın mənşəyi nəzəriyyələrinin banisi olan aliminin doğum gününə həsr olunmuş bu gün Darvinin kəşflərinin əhəmiyyətinin vurğulanması ilə yanaşı, elmin populyarlaşdırılması məqsədi daşıdığından elmi dairələr tərəfindən rəğbətlə qarşılanmışdır.

**14 fevral** – Beynəlxalq Kitab Bağışlama Günüdür. Bu gün uşaqlara kitab bağışlayan və onlarda kitaba məhəbbət yaradan bütün insanları birləşdirir. 2012-ci ildən qeyd edilən bu bayram ABŞ-da məşhur “Delightful Children’s Books” uşaq kitabı saytının yaradıcısı Emmi Brodmurun adı ilə bağlıdır. Bu ideyanı ona balaca oğlu verib. O, anasından niyə insanların bir-birinə kitab bağışladığı xüsusi gün olmadığını soruşub. 2013-cü ildə Cənubi Afrikadan Braziliyaya, Sinqapurdan İngiltərəyə, Hindistandan Yeni Zellandiyaya qədər fərqli ölkələrdən olan bloggerlər insanları həmin günü “uşaqlara kitab vermə günü” kimi qeyd etməyə çağırıb. Bununla da dünyanın bir çox ölkəsində 14 fevral “Dövlətlərarası kitab vermə günü” kimi qeyd olunmağa başlayıb.

**17 fevral** – Təmənnasız Xeyirxahlıq Günüdür. Beynəlxalq xeyriyyə təşkilatlarının təşəbbüsü ilə təsis olunmuş bu gündə bir çox şəhərlərdə məşhur aktyorların, ictimai və siyasi xadimlərin iştirakı ilə xeyriyyə tədbirləri keçirilir. Bu bayram ABŞ-da yaransa da, artıq ümumdünya əhəmiyyətli bayrama çevrilib və milliyyətindən, inancından asılı olmayaraq hamı tərəfindən qeyd edilir. Bu gün əsas olan hamıya qarşı xeyirxah olmağa çalışmaqdır. Üstəlik, bu xeyirxahlıq təmənnasız olmalıdır.

**17 fevral** – 1548-ci ildə Neapol yaxınlığında dünyaya göz açan Cordano Bruno bir çox elmləri, Nikolay Kopernikin əsərlərini araşdırdıqdan sonra Kilsənin təbiət elmləri barədə təsəvvürlərinin doğru olmadığı qənaətinə gəlir. Bütün Avropanı gəzərək Kilsə əleyhinə çıxışlar edən Bruno 1592-ci ildə İtaliyaya qayıtdıqdan sonra küfrdə ittiham olunur və həbs edilir. Ancaq bu onu öz əqidəsindən döndərmir və Bruno dünyagörüşünü rədd etməkdənsə, tonqalda yandırılmağı üstün tutur. 1600-cü ildə inkvizisiyanın qərarı ilə edam olunur.

**20 fevral** – Ümumdünya Sosial Ədalət Günüdür. BMT-nin Baş Assambleyası tərəfindən dünya ictimaiyyətinin yoxsulluqla mübarizə işində səylərini artırmaq və hər kəs üçün iş yerləri, gender bərabərliyi və insan hüquqlarına hörmətə nail olmaq məqsədilə təsis edilib. BMT-nin bəyanatında vurğulanır ki, sosial ədalət həm ölkələrin daxilində, həm də dövlətlərarası münasibətlərdə dinc şəraitin və rifahın təmin olunmasının əsas prinsiplərindən biridir.

**21 fevral** – Beynəlxalq Ana Dili Günüdür. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə YUNESKO tərəfindən elan edilib. Bu günün qeyd edilməsində başlıca məqsəd dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaqdır. YUNESKO-ya üzv ölkələrə həmin gün məktəblərdə, universitetlərdə ana dilinin əhəmiyyəti ilə bağlı tədbirlər, konfranslar, seminarlar keçirilməsi tövsiyə edilir.

**22 fevral** – Cinayət Qurbanlarına Beynəlxalq Dəstək Günüdür. 1990-cı il 22 fevral tarixində İngiltərə hökuməti cinayət qurbanlarının hüquqları haqqında bəyannamə dərc etdi. O vaxtdan bəri bu tarix dünyanın bir çox ölkəsində qeyri-rəsmi olaraq cinayət qurbanlarına dəstək günü kimi qeyd olunur. Əsas məqsəd cinayət hadisələrindən təsirlənən insanların problemlərinə diqqəti cəlb etməkdir.

**24 fevral** – Maslenitsadır. Özündə bir çox qədim slavyan ənənələrini birləşdirən Maslenitsa Böyük Pəhrizdən əvvəlki həftə ərzində qeyd olunur. Maslenitsa bayramı qışın yola salınması, yazın gəlişi ilə bağlıdır. Bayram günlərində tonqallar qalanır, qışın (köhnəliyin) rəmzi olan “Maslenitsa” müqəvvası yandırılır. Bayramın əsas atributlarından biri də günəşin simvolu sayılan qırmızı, yuvarlaq, isti blinçiklərdir.

**24 fevral** – 1582-ci ildə Roma Papası XIII Qriqori yeni, astronomik cəhətdən daha etibarlı “Qriqorian” təqviminə keçid haqqında sənəd imzaladı. Buna qədər eramızdan əvvəl 45-ci ildə Yuli Sezar tərəfindən təqdim edilmiş “Yulian” təqvimindən istifadə olunurdu.

**26 fevral** – Xocalı Soyqırımı Günüdür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etmişlər. Şəhər yerlə yeksan edilmiş, dinc əhaliyə divan tutulmuşdur. Bu qırğın nəticəsində 613 nəfər həlak olmuşdur. Onlardan 63 nəfər uşaq, 106 nəfər qadın, 70 nəfər qoca idi. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmiş, 130 uşaq isə valideynlərindən birini itirmişdir. 487 nəfər yaralanmışdır. Onlardan 76 nəfər uşaq idi. 1275 nəfər əsir götürülmüşdür. 150 nəfər itkin düşmüşdür.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

**"İmişli rayonu Xoşçobanlı kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A–653

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Zeynalova Havaş İbiş qızı, Sadıqov Vaqif Yaqub oğlu, Ağacanova Minarə Fəttah qızı, Rəcəbova Saşdı Əlibağış qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Rəcəbov Rüfət Qüdrət oğlu, İsmayılov Cavid Hafis oğlu, İsmayılova Bədurə Əlikişi qızı, Nuruşov İslam Baxşəli oğlu icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 04 dekabr 2019-cu il

**«Masallı şəhəri "İmam Əli" məscidi » dini icması**

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 337

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəcəfov Rahib Nəhmətulla oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qasımov Qurban Əliş oğlu, Musayev Abdin Qudrət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 dekabr 2019-cu il

**«Masallı rayonu Ərkivan qəsəbəsi "Pələngküştə" məscidi » dini icması**

Qeydiyyat tarixi: 11 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 90

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şiriyev Sarıbala Səfər oğlu, Bağıyev Xanhüseyn Zaid oğlu, Məmmədov İmamyar Bəhmən oğlu, Məmmədov Ziyad Bəhmən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Abdullayev Adil Ramazan oğlu, Baloğlanov Ərzuman Orucəli oğlu, Quliyev İntiqam Arif oğlu, Nəzirov Nəzir Təvəkkül oğlu, Ağazadə Əli Xubali oğlu, Abdullayev Rəşad Adil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Abbasov Səyədulla Əzizulla oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Abdullayev Adil Ramazan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 dekabr 2019-cu il

**«Masallı rayonu Banbaşı kənd məscidi » dini icması**

Qeydiyyat tarixi: 16 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 293

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Teymurov Məmmədağa Təyyar oğlu, Əliyev Məmmədəli Məmi oğlu, Əsgərli Əsgər Məmmədsaleh oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Ağayev Elçin Eybulla oğlu, Ağazadə Orxan Mirzəcan oğlu, Seyfullayev Qubad Bəhlul oğlu, Feyzullayev Mirqalib Mirhadı oğlu, Ağazadə Cavidan Mirzəcan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 dekabr 2019-cu il

**«Balakən rayonu İtitala kənd məscidi » dini icması**

Qeydiyyat tarixi: 08 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 154

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Vəliyev Xizri Musa oğlu, Muradov İbrahimxəlil İsmayıl oğlu, Balayev Seyid Həmid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Umuxanov Umuxan Çingiz oğlu, Musayev Tural Üzeyir oğlu, Musayev Sahib Cavad oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 dekabr 2019-cu il

**«Masallı rayonu Ərkivan qəsəbəsi "Şeyx Səfi" məscidi » dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117C – 771

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Dadaşov Qaraxan Mirzəmməd oğlu, Nəzərova Şahsənəm Burhan qızı, Rəhmətov Subhan Cavad oğlu, Nüsrətov Akif Əli oğlu, Əliyev Abuzər Məmmədrəhim oğlu, Mirzəyeva Xədicə İslam qızı, Kazımov Şahverən Əliş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əliyeva Səbirə Abuzər qızı, Nəzərova Afaq Xeyrulla qızı, Nəzərov Fikrət Həzi oğlu, Məmmədova Rahidə Bəxtiyar qızı, Məmmədov Qəhrəman Hüseynağa oğlu, Nəzərov Əlhəddin Fazil oğlu, Nüsrətov Ramin Akif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi:10 dekabr 2019-cu il

**«Biləsuvar şəhəri "Cümə" məscidi » dini icması**

Qeydiyyat tarixi: 11 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 156

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəhmətov Fəzair Surxay oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Murtuzlu Mirvüqar Əlifağa oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 dekabr 2019-cu il

**«Balakən rayonu Qabaqçöl qəsəbə məscidi» dini icması**

Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 147

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qazaxov Vəli Mahama oğlu, Quradayev Hacı Ramazan oğlu, Süleymanov Şəhmir Məhəmməd oğlu, Terçiyev Məhəmməd Ramazan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qadayev Ramazan Mahama oğlu, Qadayev Məhəmməd Mahama oğlu, Əhmədxanov Əhməd Məhəmməd oğlu, Çerçiyev Bəhruz Rafael oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 dekabr 2019-cu il

**«Masallı rayonu Lürən kənd məscidi » dini icması**

Qeydiyyat tarixi: 11 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 88

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mövsümov Böyükağa İsrafil oğlu, Ağayev Sərdar Əli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Rəcəbov Bəxtiyar Qəvvam oğlu, Hüseynov Akif Qurban oğlu, Xəlilov Akşin Rəsul oğlu, Xəlilov Rəsul Mansur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 dekabr 2019-cu il

**«İmişli rayonu Sarıxanlı kəndi "İmam Rza" məscidi » dini icması**

Qeydiyyat tarixi: 05 dekabr 2018-ci il
Qeydiyyat №-si: 100118A – 878

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Yusifov Davər Qəfər oğlu, Əliyev Əliağa Alış oğlu, Vəliyev Sahil Soltan oğlu, Nağıyeva Bəsdi Allahverdi qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Yusifov Fəzli Davər oğlu, Yusifova Güldanə Abbas qızı, Yusifov Elşad Qəfər oğlu, Vüqarlı Tural Vüqar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Yusifov Davər Qəfər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Yusifov Fəzli Davər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 dekabr 2019-cu il

**«Şəki şəhər mərkəzi "Cümə" məscidi » dini icması**

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 344

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səfərov Səlim Rəhim oğlu, Səlimov Soltan Hüseynçələbi oğlu, Əzizov Mahmudəli Mustafa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məmmədov Kamran Əjdər oğlu, Xəlilov Müşfiq Kamran oğlu, İdrisov Niyazi Şəfayət oğlu, Süleymanov Fərhad Baba oğlu, Məmmədov Sehran Məmməd oğlu, Əhmədov Aydın Məmməd oğlu, Məmmədov Tural İxtiyar oğlu, Səmədov İlqar Həsən oğlu, Məmmədov Vüqar Kamal oğlu, Rəsulov İntizam Sabir oğlu, Xəlilov Habil Camal oğlu, Zəkəryəyev Orxan Taləddin oğlu, Nəsurullayev Rəşad Hüseyin oğlu, Mehdiyev Tofiq Vahid oğlu, Rəhimov Məmmədrəhim Rəhim oğu, Qiyasov Adişirin Şakir oğlu, Rəhimov Yusif Rəsul oğlu, Əhmədov Mahir Abdulqədir oğlu, Həbibullayev Qeysər Vahid oğlu, Qurbanəliyev Cavanşir Əşrəf oğlu, Güliyev Misgər Yaqub oğlu, Feyzullayev Yavər Nəsif oğlu, Həsənov Çingiz Fərman oğlu, Yunusov İbrahim İsaq oğlu, İsmayılov Nüsrət Məmmədəli oğlu, Tağıyev Nazim Məcid oğlu, Abdullayev Xanlar Əhməd oğlu, Həsənov Qəzənfər Məcid oğlu, Hümmətov Aydın Abduləli oğlu, Orucov Aydın Cabir oğlu, Səmədzadə Tərlan Həsənbala oğlu, Əfəndiyev Mahmud Bəhram oğlu, Sədrəddinov Rahim Məhərrəm oğlu, Abdullayev Şirin Əbilfət oğlu, Rəsulov İrza Abdulla oğlu, Əlirzazadə Hikmət Niymət oğlu, Həmzətov Natiq Nurəddin oğlu, Cabbarov Rauf Yavər oğlu, Uğurluyev Namiq Uğurlu oğlu, Yunusov Sərdar Əşrəf oğlu, Məmmədov Rəhman Ramiz oğlu, Məmmədova Kamalə Həsənbala qızı, Babayeva Rahilə Camaləddin qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Səfərov Səlim Rəhim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Məmmədov Kamran Əjdər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 dekabr 2019-cu il

**Neftçala rayonu Xoltəzəkənd kəndi "İmam Rza" məscidi » dini icması**

Qeydiyyat tarixi: 27 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 497

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bəndalıyev Adil Ağali oğlu, İmanov Firudin Vəli oğlu, Şahbazov Xubali Rəcəb oğlu, Rzayev Həzrət Nüsrət oğlu, Bəndəliyev Kamil Ağali oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Nəcəfov Vaqif Yusif oğlu, Nağıyev Şahin Əjdər oğlu, Ələkbərov Ədalət Kərim oğlu, Nəcəfov Məhərrəm Yusif oğlu, Pirəliyev Gülağa Qəzənfər oğlu, Əhədov Hüseyn Söhbət oğlu, Qasımlı Məhərrəm Mübariz oğlu, Soltanov

İslam Sədi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Bəndalıyev Adil Ağali oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Nəcəfov Vaqif Yusif oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 dekabr 2019-cu il

**«Neftçala rayonu Xolqaraqaşlı kəndi "Əlibala Səlimov" məscidi » dini icması**

Qeydiyyat tarixi: 11 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 354
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəfərov Cəfərağa Xankişi oğlu, Şahbazov Təyyar Xanqulu oğlu, Tağıyev Şamil Xanoğlan oğlu, Abbasov Fərzulla Abdulrazzaq oğlu, Səlimov Sabir Mehdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Həsənov Əşrəf Həsənbala oğlu, Hüseynov Elşən Gülməmməd oğlu, Bağırov Oktay Əlibala oğlu, Hüseynov Əli Şirməmməd oğlu, Əliyev Gülbala Ağasəf oğlu, Dadaşov Xəlil Əli oğlu, Bağırov Firdovsi Əlibala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 dekabr 2019-cu il

**«Salyan rayonu Marışlı kəndi "Mirtağı" məscidi » dini icması**

Qeydiyyat tarixi: 09 oktyabr 2018-ci il
Qeydiyyat №-si: 100118C – 835
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Babayev Qabil Polad oğlu, Cəbrayılov Böyükkişi Teymur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Cəbrayılov Mail Böyükkişi oğlu, Yusifov Eldəniz Siyasət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi:18 dekabr 2019-cu il

**«Neftçala rayonu Aşağı Qaramanlı kəndi "Abbas" məscidi » dini icması**

Qeydiyyat tarixi: 12 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 478
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Böyükağa Seyidağa oğlu, Kərimov Rahat Əyyub oğlu, Əzizov Məmməd Şirin oğlu, Məmmədov Əhmədağa Hacıbala oğlu, Əliyeva Sübüxanım Cabbar qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Əliyev Taleh Məhərrəm oğlu, Feyziyev Sərdar Əmənqulu oğlu, Xankişiyev Elmar Şahvəli oğlu, Həsənov Rüfət Babaş oğlu, Fərəcov Anar Nizami oğlu, Cəbiyev Malik Sabir oğlu, Xankişiyev Elnur Şahvəli oğlu, Səmədov Sərraf Alxaz oğlu, İbrahimov Təbriz Məhərrəm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 dekabr 2019-cu il

**«Neftçala rayonu Xolqarabucaq kəndi "İmam Hüseyn" məscidi » dini icması**

Qeydiyyat tarixi: 05 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 55
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nağıyev Əvəz Atamalı oğlu, Əskərov Mirzağa Səttar oğlu, Əsədov Gülməmməd Səttar oğlu, Məmmədov Fazil Abdulrazaq oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Babayev Ələsgər Gülağa oğlu, Əsədov Sərdar Gülməmməd oğlu, Rəsulov Ərəstun Rüstəm oğlu, Əhmədov Mirsəmid Mirqalib oğlu, Əhədov Zahid Əziz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 dekabr 2019-cu il

**«Neftçala rayonu Qaçaqkənd kəndi "Fatimeyi-Zəhra" məscidi » dini icması**

Qeydiyyat tarixi: 13 noyabr 2015-ci il
Qeydiyyat №-si: 100115C – 616
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həsənov Heybət Gülməmməd oğlu, Cəfərov Mətləb Cəbrayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Hənifəyev Yunis Mustafa oğlu, İsrafilov Firuz Habil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 dekabr 2019-cu il

**«Neftçala rayonu II Qaralı kəndi «İmam Rza» məscid» dini icması**

Qeydiyyat tarixi: 16 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 437
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəfərov Balamirzə Məmmədrza oğlu, Cəfərov Ağamirzə Məmmədrza oğlu, Rəcəbov Qəfər Cəlil oğlu, Süleymanov Məhərrəm Hüseynalı oğlu, İskəndərov Şirin İman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Feyzullayev Firuz Xeyrulla oğlu, Məmmədov Elşad Sübhan oğlu, Əskərov Nazim Xəlil oğlu, Feyzullayev Eynulla Xeyrulla oğlu, Sultanov Zakir Dilavər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 dekabr 2019-cu il

**«Neftçala rayonu Xol Qaraqaşlı kəndi "Həzrət Məhəmməd" məscidi » dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C – 668
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Arif Rza oğlu, Xankişiyeva Qızqayıd Böyükağa qızı, Şirəliyeva Elmira Uruf qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Məmmədov Məsləhət Xanhüseyn oğlu, Bayramov Loğman Qüdrət oğlu, Zeynalov Mahir Tahir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 18 dekabr 2019-cu il

**«Neftçala rayonu I Qaralı kəndi «İmam Əli» məscidi» dini icması**

Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C – 706
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Mirsədir Mirsüleyman oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Ağayev Elmir Yusif oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 dekabr 2019-cu il

**«Neftçala rayonu Aşağı Surra kəndi "İmam Zaman" məscidi » dini icması**

Qeydiyyat tarixi: 11 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 347
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mehtiyev Kərim Sultan oğlu, Zabitov Gülhəsən Mirzəhəsən oğlu, Babayev Əliabas Miriş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
İmanov Habil Səxavət oğlu, Salmanov Babək Ağayar oğlu, Babayev Ramin İsa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 dekabr 2019-cu il

**«İmişli rayonu Qaralar kəndi "Həzrəti Əbəlfəz" məscidi » dini icması**

Qeydiyyat tarixi: 29 noyabr 2018-ci il
Qeydiyyat №-si: 100118A – 864
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əsədov Vaqif Məhəmməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Əsədov Vaqif Məhəmməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Bəndalıyev Adil Ağali oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Nuriyev Şəmsəddin Novruz oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 dekabr 2019-cu il

**«Neftçala rayonu Aşağı Surra kəndi "İmam Sadiq" məscidi » dini icması**

Qeydiyyat tarixi: 11 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 349
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məhərrəmov Xankişi Yaqub oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Ələkbərov Səlim Zabil oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 dekabr 2019-cu il

**«Neftçala rayonu Mirzəqurbanlı kəndi «Fatimeyi-Zəhra» məscidi » dini icması**

Qeydiyyat tarixi: 22 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 419
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qurbanov Ədalət Pənah oğlu, Fərəcov Məhəmməd Yusif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Qarayev Əlihüseyn Məmmədhüseyn oğlu, Rzayev Mənsim Koroğlu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi:19 dekabr 2019-cu il

**«Neftçala şəhəri V-məhəllə "İmam Hüseyn" məscidi » dini icması**

Qeydiyyat tarixi: 20 aprel 2016-cı il
Qeydiyyat №-si: 100116C-639
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Malik Fərman oğlu, Bədəlova Sitara Polad qızı, Əliyev Vüqar Qabil oğlu, Əliyev Yadigar Məhərrəm oğlu, Qənbərov Elşən Məhəmməd oğlu, Qənbərov Qiyas Məhəmməd oğlu, Məmmədov Bilal Vaqif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.
Rzayev Hüseyn Rahil oğlu, Quliyev Həsənağa Əzizağa oğlu, Eynaliyev Yaşar Ağalı oğlu, Əliyev İbadulla Fətulla oğlu, Cənnətəliyev Firuz Mirzəməmməd oğlu, Bədəlov Abseyn Ərəstun oğlu, Quliyev Həsənalı İsbər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Qənbərov Elşən Məhəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Qənbərov Məhəmməd Süleyman oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 19 dekabr 2019-cu il

**«Neftçala rayonu Astanlı kəndi "Sahibəz-Zaman" məscidi» dini icması**

Qeydiyyat tarixi: 24 aprel 2015-ci il
Qeydiyyat №-si: 100115C – 577
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nağıyev Zəbulla Cəfər oğlu, Məmmədov Musa Xanəhməd oğlu, Nağıyev Ələkbər

Cəfər oğlu, İsmayılov Cəfər Nəcəf oğlu, Süleymanov Camal Fətulla oğlu, Süleymanova Qumru Əsgər qızı, Tağıyeva Şərqiyə Mirzəmməd qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məhərrəmov Fariz Ramiz oğlu, Ağalarov Mircəlil Cabbar oğlu, Tağıyev Vüsal Səməd oğlu, Əskərov Elsevər Füzuli oğlu, Məmmədova Xurman Məmməd qızı, Əhmədova Şüşəxanım Dadaş qızı, Məmmədova Gülşən Hafiz qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi:19 dekabr 2019-cu il

## Ləğv olunmuş dini qurumlar

**"Astara rayonu Kijəbə qəsəbəsi Lovayın kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 24.02.2010-cu il
Qeydiyyat №-si: 100110A1-236

"Astara rayonu Kijəbə qəsəbəsi Lovayın kənd məscidi" dini icması təsisçilərinin 27.11.2019-cu il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 13 dekabr 2019-cu ildə qeydə alınıb.

**"Lerik rayonu Lerik qəsəbə məscidi" dini icması**

Qeydiyyat tarixi: 15.05.2008-ci il
Qeydiyyat №-si: 1308Le1-486

"Lerik rayonu Lerik qəsəbə məscidi" dini icması təsisçilərinin 27.11.2019-cu il tarixli, 02 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 13 dekabr 2019-cu ildə qeydə alınıb.

**"Əli-Ayağı" ziyarətgahı**

Qeydiyyat tarixi: 18.01.2002-ci il
Qeydiyyat №-si: 06

"Əli-Ayağı" ziyarətgahı təsisçilərinin 12.12.2019-cu il tarixli, 01 nömrəli protokolu ilə həmin dini qurumun ləğvi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 26 dekabr 2019-cu ildə qeydə alınıb.

## E L A N

09.07.2004-cü il tarixli, 277 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Xaçmaz rayonu Çılğır kənd" dini icmasına məxsus şəhadətnamə, nizamnamə, möhür və ştamp, Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarış itirildiyi üçün etibarsız sayılır.

"

Xaçmaz rayonu Çılğır kənd" dini icması (Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 09.07.2004-cü ildə 277 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır)

24.06.2002-ci il tarixli, 131 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Xaçmaz rayonu Köhnə-Xudat kənd" dini icmasına məxsus şəhadətnamə, nizamnamə, möhür və ştamp, Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən çıxarış itirildiyi üçün etibarsız sayılır.

"Xaçmaz rayonu Köhnə-Xudat kənd" dini icması (Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 24.06.2002-ci il tarixli, 131 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 28 yanvar 2020-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

17.03.1997-ci il tarixli, 146 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış "Xaçmaz rayonu Xudat şəhəri "Məhəmməd Yarağı" məscidi müsəlman" icmasına məxsus şəhadətnamə, nizamnamə, möhür və ştamp, çıxarış itirildiyi üçün etibarsız sayılır.

"Xaçmaz rayonu Xudat şəhəri "Məhəmməd Yarağı" məscidi müsəlman" icması (Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 17.03.1997-ci il tarixli, 146 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 28 yanvar 2020-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.

24.06.2002-ci il tarixli, 129 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış "Qobustan rayonu Nəriman kənd" dini icmasına məxsus möhür və ştamp itirildiyi üçün etibarsız sayılır.

"Qobustan rayonu Nəriman kənd" dini icması (Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 24.06.2002-ci il tarixli, 129 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 yanvar 2020-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

17.10.1997-ci il tarixli, 198 nömrəli şəhadətnamə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış "Ağdam rayonu Çəmənli kəndi "Cümşüd" məscidi" dini icmasına məxsus möhür və ştamp itirildiyi üçün etibarsız sayılır.

"Ağdam rayonu Çəmənli kəndi "Cümşüd" məscidi" dini icması (Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 17.10.1997-ci il tarixli, 198 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 28 yanvar 2020-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

"Masallı rayonu, Hişkədərə kənd "İmamzadə" ziyarətgahının (Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 29.09.2003-cü il tarixli, 211 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 27 yanvar 2020-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

## ƏFQANISTANDA SÜLH NAZİRLİYİ YARADILIB



Əfqanıstan Prezidenti Əşrəf Qaninin qərarı ilə Talibanla sülh danışıqlarını sürətləndirmək üçün Sülh Nazirliyi yaradılıb.

"Anadolu" agentliyi xəbər verir ki, bundan əvvəl Əfqanıstan parlamenti prezidentin müvafiq təşəbbüsünü təsdiqləmişdi. Paytaxt Qahirədə yeni nazirliyin işçilərinin ilk iclası artıq baş tutub.

Sülh nazirinin müavini Qulam Yəhya Abbas bildirib ki, yeni nazirlik sülh danışıqlarının koordinasiyasını yaxşılaşdıracaq, bütün qurum və təşkilatlara sülh mövzusunda məsləhətlər verəcək. Yüksək Sülh Şurasının da Talibanla sülh danışıqlarında onlara kömək edəcəyini dilə gətirən Abbas barışın təmin edilməsi ilə bağlı Şuranın təcrübələrindən faydalanacaqlarını deyib.

Qeyd edək ki, Əfqanıstan Yüksək Sülh Şurası 2010-cu ildə sabiq Prezident Həmid Kərzai tərəfindən qurulmuşdu.

## HİNDUİSTLƏR İSVEÇ İSTEHSALÇISINA QƏZƏBLƏNİBLƏR

Hinduistlər şortlara onların tanrılarının təsvirini vurduğuna görə İsveç şirkətinə qəzəbləniblər.

Dünya Hinduizm Cəmiyyətinin yaydığı press-relizə görə, hiddətlənmiş hinduistlər Stolkholmun "Hoodie Lab" şirkətini üzərində hinduist panteonunun ən sayılıb-seçilən tanrılarından birinin – Qaneşunun təsviri olan şortları satışdan çıxarmağa, habelə üzr istəməyə çağırıblar.

Cəmiyyətin prezidenti Racan Zed bildirib ki, hinduizmdə Qaneşu ən çox sitayiş edilən tanrılardandır. Qaneşunun təsvirləri ilə insan bədəninin müxtəlif nahiyələrini bəzəmək deyil, ona sitayiş etmək lazımdır. Din xadiminin sözlərinə görə, Hinduizmdəki tanrılardan, konsepsiyalardan və simvollardan kommersiya və digər məqsədlərlə istifadə etmək yolverilməzdir.

## MÜSƏLMAN LİDERLƏR HOLOKOST QURBANLARININ XATİRƏSİNİ YAD EDİBLƏR

Müsəlman liderlər Polşanın Osvensim qəsəbəsindəki ölüm düşərgəsinə gələrək burada qətlə yetirilmiş insanların xatirəsini yad ediblər.

Ziyarət zamanı Osvensim-Birkenau düşərgəsinin həyətində namaz qılınıb.

Müsəlman liderlərinin nümayəndə heyətinə rəhbərliyi Dünya Müsəlmanları Liqasının katibi Məhəmməd ibn Əbdülkərim edib.

Qeyd edək ki, Dünya Müsəlmanları Liqası İslam aləminin ən böyük dini icmalarından biridir və Səudiyyə Ərəbistanı tərəfindən maliyyələşdirilir.

## NOTR-DAM KİLSƏSİNDƏ SƏRGİ TƏŞKİL OLUNACAQ



2020-ci ilin yay aylarında parislilər və şəhərin qonaqları Paris Notr-Dam kilsəsinin yanğından zərər görmüş sənət əsərləri və dini əşyaları ilə tanış ola biləcəklər.

Bu barədə Parisin arxiyepiskopu Mişel Opetinin kilsənin bərpası üzrə dövlət komitəsindəki nümayəndəsi, keşiş Jil Druen mətbuata açıqlamasında bildirib.

Qeyd olunub ki, sərgidə kilsə sənəti nümunəsinin və katoliklərin 150 eksponatı nümayiş etdiriləcək.

Hazırlıqlarına başlanılan sərgi "Notr-Damı yenidən görmək. Məbədin xəzinəsi onun divarlarından kənarda" adlanacaq.

Vurğulanıb ki, ekspozisiyalar məşhur kilsənin yerləşdiyi ərazinin yaxınlığında nümayiş etdiriləcək. Sərgiyə giriş pulsuz olacaq. Ziyarətə gələn şəxslər yanğından zərər görmüş məbədin bərpası üçün ianə verə biləcəklər.

CƏMİYYƏT və DİN
№ 01 (342) / YANVAR 2020-ci il

# DÜNYANIN ƏN BAHALI ŞƏHƏRLƏRİNİN REYTİNQİ AÇIQLANIB: BAKI 390-CI YERDƏDİR



"Numbeo" statistik resursu dünyanın ən bahalı şəhərlərinin reytinqini dərc edib.

Kompaniyanın hesabatında "həyat dəyəri indeksi" üzrə lider Sürix olub. İlk beşlikdəki bütün yerlərdə İsveçrə şəhərləri qərarlaşıb. Sürixin ardınca Bazel, Lozanna, Cenevrə və Bern gəlir. Onluğa həmçinin Stavanger, Oslo və Tronheym (hər üçü Norveç), Reykyavik (İslandiya) və Bergen (Norveç) şəhərləri daxildir.

Reytinqə görə, Bakı ən bahalı şəhərlər arasında 390-cı yerdədir. Moskva 251-ci, İstanbul 325-ci, Ankara 362-ci, Yerevan 380-ci, Tbilisi 404-cü yeri tutur.

Siyahıya ümumilikdə 440 şəhər daxil edilib. Xidmətin saytında qeyd olunur ki, reytinq mağaza və restoranlarda qiymətlər, nəqliyyatda gediş haqqı, kommunal xidmətlərə çəkilən xərc, habelə yerli əhalinin alıcılıq qabiliyyəti əsasında tərtib olunub.

# VEQANLAR ARTIQ HOLLİVUDDADIRLAR

Fevralın 10-da keçiriləcək 92-ci "Oskar" mükafatının təqdimetmə mərasimi ilə bağlı verilən ziyafətdə menyuda heyvan mənşəli qidalar olmayacaq. Qonaqlara yalnız tərəvəz məhsulları və desert təklif ediləcək.

Kütləvi informasiya vasitələrində yayılan xəbərlərə görə, veqanlıq 2020-ci ilin əsas restoran trendinə çevriləcək. Belə ki, ABŞ-da fəaliyyət göstərən ən böyük "Fast food" şəbəkələri artıq menyularında ətsiz burgerlərdən istifadə edirlər. Ümumiyyətlə, ölkədə veqanların sayı durmadan artır.

"Forbes" jurnalının məlumatına görə, 2018-ci ildə amerikalılar düyü, badam, soya kimi məhsullara üstünlük veriblər. Onlar bunun üçün təxminən 1,9 milyard dollar xərcləyiblər. Ümumilikdə, bitki məhsullarına çəkilən xərclər 3,3 milyard dollar təşkil edib. Əgər 2014-cü ildə ölkədə vegeterianların sayı 1 faiz idisə, 2017-ci ildə 6 faiz təşkil edib.



## Yadigar söz

**Albert Eynşteyn**
*(nəzəriyyəçi fizik)*

***İnsanı ayaqda saxlayan skelet və əzələ sistemi deyil, prinsipləri və inanclarıdır.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (Fevral - 2020)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:28 | 07:50 | 12:54 | 16:17 | 18:13 | 19:16 |
| 2 | 06:27 | 07:49 | 12:54 | 16:18 | 18:14 | 19:17 |
| 3 | 06:26 | 07:48 | 12:54 | 16:20 | 18:15 | 19:18 |
| 4 | 06:25 | 07:47 | 12:55 | 16:21 | 18:17 | 19:19 |
| 5 | 06:24 | 07:46 | 12:55 | 16:22 | 18:18 | 19:20 |
| 6 | 06:23 | 07:45 | 12:55 | 16:23 | 18:19 | 19:21 |
| 7 | 06:22 | 07:44 | 12:55 | 16:24 | 18:20 | 19:22 |
| 8 | 06:21 | 07:43 | 12:55 | 16:25 | 18:21 | 19:23 |
| 9 | 06:20 | 07:42 | 12:55 | 16:26 | 18:23 | 19:24 |
| 10 | 06:19 | 07:41 | 12:55 | 16:28 | 18:24 | 19:25 |
| 11 | 06:18 | 07:40 | 12:55 | 16:29 | 18:25 | 19:26 |
| 12 | 06:17 | 07:38 | 12:55 | 16:30 | 18:26 | 19:28 |
| 13 | 06:16 | 07:37 | 12:55 | 16:31 | 18:27 | 19:29 |
| 14 | 06:15 | 07:36 | 12:55 | 16:32 | 18:28 | 19:30 |
| 15 | 06:14 | 07:35 | 12:55 | 16:33 | 18:30 | 19:31 |
| 16 | 06:13 | 07:33 | 12:55 | 16:34 | 18:31 | 19:32 |
| 17 | 06:11 | 07:32 | 12:55 | 16:35 | 18:32 | 19:33 |
| 18 | 06:10 | 07:31 | 12:55 | 16:37 | 18:33 | 19:34 |
| 19 | 06:09 | 07:29 | 12:55 | 16:38 | 18:34 | 19:35 |
| 20 | 06:08 | 07:28 | 12:55 | 16:39 | 18:35 | 19:36 |
| 21 | 06:06 | 07:27 | 12:54 | 16:40 | 18:37 | 19:37 |
| 22 | 06:05 | 07:25 | 12:54 | 16:41 | 18:38 | 19:38 |
| 23 | 06:04 | 07:24 | 12:54 | 16:42 | 18:39 | 19:40 |
| 24 | 06:02 | 07:22 | 12:54 | 16:43 | 18:40 | 19:41 |
| 25 | 06:01 | 07:21 | 12:54 | 16:44 | 18:41 | 19:42 |
| 26 | 06:00 | 07:20 | 12:54 | 16:45 | 18:42 | 19:43 |
| 27 | 05:58 | 07:18 | 12:54 | 16:46 | 18:43 | 19:44 |
| 28 | 05:57 | 07:17 | 12:53 | 16:47 | 18:44 | 19:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20**.

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# ÜÇ YAŞLI UŞAQ İNGİLTƏRƏDƏ YÜKSƏK İNTELLEKTLİ İNSANLAR KLUBUNA ÜZV SEÇİLİB

İngiltərədə Məhəmməd Hariz Nadzim adlı üç yaşlı uşaq yüksək intellektli insanlar klubuna üzv seçilib.

İngilis mütəxəssislər uşağın intellektual (İQ) səviyyəsini 142 balla qiymətləndiriblər və bu da onun öz həmyaşıdlarının 99,7 faizindən daha ağıllı olduğunu göstərir.

İlk baxışdan adi təəssürat bağışlayan uşaq onu həmyaşıdlarından fərqləndirən keyfiyyətlərə malikdir. Valideynləri ilk vaxtlar fərqinə varmasalar da, bağçada pedaqoqlar onun fərqli keyfiyyətlərə sahib olduğunu kəşf ediblər. Məhəmməd hələ yeddi aylıq ikən danışmağa, iki yaşında gecə nağıllarını oxumağa başlayıb. Hazırda o, yazmağı və hesablamağı bacarmaqla yanaşı, ingilis və malay dillərində sərbəst danışır.



Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894